

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

07 iyul 2026-cı il, çərşənbə axşamı
№ 116 (7183)
Qiyməti 60 qəpik


## Azərbaycan-ABŞ münasibətləri yüksələn xətlə və uğurla inkişaf edir



Bax səh. 2

## Azərbaycan Rusiyaya nota verib

Bax səh. 3

## Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib



Bax səh. 4

## YAP Mərkəzi Aparatında tədbir keçirilib



Bax səh. 4

### Uşaqların sosial şəbəkələrdən istifadəsi qanunla tənzimlənəcək

Bax səh. 3

### COP29-un gözəl mirası unudulmur

Bax səh. 5

### Ölkəmiz ATƏT PA-da uğurla təmsil olunur

Bax səh. 5

### Hörmüz boğazı, yoxsa Hörmüz “düyünü”?

Bax səh. 7

## Diqqət ANKARAYA!!!



Bax səh. 6

# Azərbaycan-ABŞ münasibətləri yüksələn xətlə və uğurla inkişaf edir



## Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampa ABŞ-ın müstəqilliyinin 250-ci ildönümü münasibətilə təbrik məktubu ünvanlayıb

Azərbaycan dövlətinin yürütdüyü praqmatik, əməkdaşlığa istinad edən, xüsusilə bərabərhüquqlu şəkildə qarşılıqlı maraqların qorunmasını özündə birləşdirən siyasət ölkəmizi qlobal dünyanın diqqət mərkəzinə gətirir. Bakı bölgədə formalaşan yeni reallıqlar əsasında müasir konfiqurasiya yaradır, yeni siyasi-iqtisadi nizamın formalaşmasına töhfə verir. Bu isə, əməkdaşlıqda maraqlı olan dövlətlər üçün əlaqələrin daha da güclənməsi perspektivini ön plana çəkir. Həm çoxtərəfli, həm də ikitərəfli əlaqələrin inkişafına xüsusi önəm verən Azərbaycanın bu geniş diapazonlu fəaliyyəti dünyanın aparıcı dövlətləri tərəfindən də təqdir olunur. Rəsmi Bakı ilə strateji təmasların gücləndirilməsi istiqamətində atılan addımlar bunu təsdiqləyir. Xüsusi olaraq qeyd edilməlidir ki, bu məsələ güc mərkəzlərinin də gündəliklərində ən aktual prioritet kimi göstərilir. Dünyanın aparıcı güc mərkəzi kimi xarakterizə olunan ölkələr Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduqlarını irəli sürürlər. Azərbaycan da bu münasibətin qarşılığında hər zaman dostluq və işgüzar əməkdaşlıq əlaqələrinin daha da dərinləşdirilməsi üçün səy göstərir. Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa ABŞ-ın milli bayramı -müstəqilliyin 250-ci ildönümü münasibətilə ünvanladığı təbrik məktubu da dərinləşən əlaqələrin mühüm təsdiqidir.

Qeyd edilməlidir ki, Donald Trampın ikinci dəfə dövlət başçısı seçilməsi ilə ABŞ - Azərbaycan münasibətləri son 2 ildə yeni mərhələyə qədəm qoyub - daha yüksək temp qazanan əməkdaşlıq əlaqələri bu mənada, xüsusi vurğulanmalıdır. Bu iki il ərzində Prezident Trampın Azərbaycan dövlət başçısı ilə bir neçə dəfə görüşməsi, ötən ilin yayında Vaşinqtonda keçirilən Sülh Sammiti əlaqələrin inkişaf dinamikasından xəbər verir.





**ABŞ qlobal arenada hər bir cəhətdən güclü və qüdrətli dövlətdir...**

Vurğulanmalıdır ki, XXI əsrin başlanğıcından bəri qlobal təhlükəsizlik sistemi ardıcıl sarsıntılarla üz-üzədir. “Soyuq müharibə”dən sonrakı mərhələdə formalaşdırılmış beynəlxalq nizam, xüsusilə də sülhün qorunmasına cavabdeh olan institutlar - BMT və digər beynəlxalq strukturlar, xüsusilə regional təhlükəsizlik alyansları (vaxtilə yaradılmış, bir neçə gün öncə rəsmən ləğv olunmuş ATƏT-in Minsk qrupu timsalında) artıq müasir reallıqlar qarşısında effektiv deyil. Silahlı münaqişələrin coğrafiyası genişlənib, lokal toqquşmalar beynəlxalq rəqabətin qlobal müstəviyə daşındığı platformalara çevrilib, yeni güc mərkəzlərinin yüksəlişi və geosiyasi rəqabətin sərtləşməsi dünya təhlükəsizliyinin konturlarını dəyişib. Son 10 ildə isə xüsusilə müşahidə olunan bu proseslər nəticəsində sülhün davamlılığını təmin edən mexanizmlər işləmir, böhranların idarə olunması gecikir, diplomatik vasitəçilik isə çox zaman güc siyasətinin kölgəsində qalır. Bu fon qlobal aləmdə yeni vasitəçilərə, fərqli diplomatik yanaşmalara ehtiyac yaradıb.

Məhz belə bir mərhələdə ABŞ Prezidenti Donald Trampın son 2 ilə yaxın müddət ərzində həyata keçirdiyi sülh təşəbbüsləri beynəlxalq siyasətdə diqqətçəkən hadisələrdən birinə çevrilib. Trampın barış proseslərinə müdaxiləsi həm üslub, həm də sürət baxımından klassik diplomatiyadan fərqlənir. O, daha çox açıq danışıq formatı və birbaşa əlaqələr üzərində qurulan vasitəçilik xəttini tətbiq edir. Nəticə etibarı ilə, Tramp artıq 10-dan çox münaqişənin bitməsinə vəsilə olub - beləliklə, ABŞ Prezidenti qlobal təhlüəksizlik arxitekturasına böyük töhfə verib. Prezident İlham Əliyev məktubunda bildirib ki, azadlıq uğrunda mübarizənin, yenilməz iradənin və demokratiyanın rəmzinə çevrilmiş İstiqlaliyyət Bəyannaməsinin iki yüz əlli il əvvəl 4 iyul tarixində imzalanması ilə müstəqilliyini elan etmiş Amerika Birləşmiş Ştatları təkcə yerləşdiyi qitədə deyil, bütövlükdə dünyada yeni nizamın qurulmasına təkan verdi: “Ötən dövr ərzində şanlı inkişaf yolu keçmiş Birləşmiş Ştatlar bu gün qlobal arenada hər bir cəhətdən güclü və qüdrətli dövlətdir. Hazırda Sizin əzmlə və qətiyyətlə həyata keçirdiyiniz siyasət sayəsində ölkənizin əldə etdiyi möhtəşəm nailiyyətlərin sayı artır, beynəlxalq aləmdə liderliyi, etibarı və yüksək nüfuzu daha da möhkəmlənir”.

**Strateji Tərəfdaşlıq Xartiyası münasibətləri keyfiyyətcə yeni mərhələyə qaldırıb**

Son iki ildə yeni mərhələyə qədəm qoyan ABŞ-Azərbaycan ikitərəfli münasibətləri yeni bir status qazanıb. Qeyd edək ki, bu il fevralın 10-da ABŞ-ın vitse-prezidenti Cey. Di. Vensin Bakıya səfəri çərçivəsində Azərbaycan ilə ABŞ arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya imzalandı. Bu sənədin imzalanması iki ölkə arasındakı münasibətlərin keyfiyyətcə ən yeni mərhələsinin başlanğıcı kimi qiymətləndirilir. Xartiya özündə bir sıra mühüm məqamları ehtiva edir - diplomatik əlaqələrin genişlənməsi, strateji iqtisadi münasibətlər sisteminin formalaşdırılması, müasir çağırışlara əsasən dialoqun daha da gücləndirilməsi ilə yanaşı, sənəd həm də Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni siyasi reallıqların beynəlxalq müstəvidə qəbulunun göstəricisi sayıla bilər. Qarabağ müharibəsində əldə olunan zəfərdən sonra regionda yaranmış geosiyasi vəziyyət Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpası ilə xarakterizə olunur. Xartiyanın preambulasında əksini tapan müddəalar Vaşinqtonun bu reallığı nəzərə aldığını və Bakı ilə münasibətləri yeni status və yeni əməkdaşlıq müstəvilərində inkişaf etdirmək niyyətində olduğunu göstərir. Belə ki, regional bağlantılar, iqtisadi sərmayə və təhlükəsizlik əməkdaşlığı da daxil olmaqla, qarşılıqlı maraq və ortaq fayda doğuran sahələrdə strateji tərəfdaşlığın əhəmiyyəti hər iki ölkə tərəfindən təsdiqlənib. Eləcə də diplomatik, iqtisadi, enerji, texnoloji və təhlükəsizlik sahələri də daxil olmaqla, qarşılıqlı maraq doğuran məsələlərdə münasibətləri gücləndirmək üçün birgə niyyətlər, strateji tərəfdaşlığın və genişləndirilmiş əməkdaşlığın planlaşdırılması və həyata keçirilməsinə yalnız dövlət qurumlarının deyil, həm də hər iki ölkənin özəl sektorlarının cəlb edilməsinin mühüm əhəmiyyəti vurğulanıb. Prezident İlham Əliyev ABŞ-ın dövlət başçısına ünvanladığı təbrik məktubunda bildirib ki, son dövrdə Azərbaycan-Amerika Birləşmiş Ştatları münasibətlərinin yüksələn xətlə və uğurla inkişaf etməsi məmnunluq doğurur: “Biz iki ölkə arasında təşəkkül tapmış strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirir, dövlətlərarası əlaqələrimizin güclənməsinə daim verdiyiniz böyük önəmə və dəstəyə görə Sizə minnətdarlığımızı bildiririk. Fevral ayında imzalanan və münasibətlərimizi keyfiyyətcə yeni mərhələyə qaldıran Strateji Tərəfdaşlıq Xartiyasının iqtisadiyyat, enerji, bağlantılar, təhlükəsizlik kimi ənənəvi sahələrlə yanaşı, rəqəmsal transformasiya, süni intellekt və digər mühüm istiqamətlər üzrə tərəfdaşlığın inkişaf etdirilməsinə təkan verəcəyinə əminliyimi ifadə edirəm”.



İmzalanan Strateji Tərəfdaşlıq haqqında Xartiya Azərbaycan ilə ABŞ arasında münasibətlərin sadəcə genişlənməsi deyil, onların strukturlaşmış və uzunmüddətli strateji çərçivəyə salınması deməkdir. Sənəd göstərir ki, Bakı ilə Vaşinqton qarşılıqlı maraqları ayrı-ayrı istiqamətlər üzrə deyil, vahid və qarşılıqlı əlaqəli sistem daxilində görür. Bu yanaşma siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji təhlükəsizliyi, rəqəmsal transformasiya və müdafiə sahələrini bir-birini tamamlayan elementlər kimi formalaşdırır. Bütün bunların fonunda Xartiya Azərbaycan-ABŞ münasibətlərini yeni mərhələyə daşıyan strateji yol xəritəsi kimi qiymətləndirilə bilər. Bu sənəd qarşılıqlı etimadın möhkəmləndirilməsinə, ortaq maraqların uzlaşdırılmasına və gələcək əməkdaşlığın institusional əsasda inkişafına zəmin yaradır.

**Trampın Cənubi Qafqazda sülh gündəliyinin təşviqi istiqamətində səyləri...**

Sirr deyil ki, 2020-ci il Vətən müharibəsi nəinki bizim regionda, eləcə də mühüm bir coğrafiyada yeni münasibətlər sistemi formalaşdırdı. Azərbaycan müharibədən sonrakı dövrdə də qalib dövlət olmasına baxmayaraq, özünün sülhpərvər siyasi ənənəsinə sadiq qaldı - Bakı regionda sabitliyin və davamlı təhlükəsizliyin bərpası üçün qətiyyətli iradə nümayiş etdirdi. Tarix göstərdi ki, Azərbaycan üçün qələbə revanşizm demək deyil - qələbə yeni bir siyasi reallıq, yeni münasibətlər sistemi və yeni inkişaf mühiti formalaşdırmaq imkanıdır. Beləliklə, Azərbaycanın müəllifi olduğu sülh gündəliyi regionun taleyini dəyişən əsas siyasi xəttə çevrildi.

Cənubi Qafqazda formalaşan yeni sülh şəraiti 8 avqust 2025-ci ildə Vaşinqtonda keçirilən yüksək səviyyəli görüşdə özünün siyasi və diplomatik təsdiqini tapdı. ABŞ Prezidenti Donald Trampın iştirakı ilə baş tutan bu görüş regionun gələcəyi baxımından mühüm dönüş nöqtəsi kimi qiymətləndirilir. Görüş zamanı Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması, eləcə də ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı qarşılıqlı razılaşmanın imzalanması artıq köhnəlmiş və nəticəsiz mexanizmlərin tarixə qovuşduğunu göstərdi.

Bu addım iki ölkə arasında münasibətlərin normallaşması ilə yanaşı, bütövlükdə Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının formalaşması baxımından da mühüm əhəmiyyət daşıyır. Uzun illər ərzində formal fəaliyyət göstərən, lakin real nəticə ortaya qoya bilməyən Minsk qrupunun ləğvi regionda yeni və daha effektiv siyasi yanaşmaların ön plana çıxdığını təsdiqlədi. Vaşinqton görüşü göstərdi ki, Azərbaycan tərəfindən irəli sürülən sülh təşəbbüsləri artıq beynəlxalq müstəvidə də qəbul edilir və dəstəklənir. Bu, Cənubi Qafqazda formalaşan sülh prosesinin lokal deyil, qlobal miqyasda tanınmasının göstəricisidir. Region artıq münaqişə zonası kimi deyil, sabitlik və əməkdaşlıq məkanı kimi qəbul olunmağa başlayır.

Bu prosesdə ABŞ-ın, xüsusilə Prezident Donald Trampın rolu ayrıca vurğulanmalıdır. Hakimiyyətə qayıdışından sonra ötən dövr Tramp administrasiyası Azərbaycanla münasibətlərə xüsusi önəm verərək Cənubi Qafqazda Bakı tərəfindən formalaşdırılan yeni siyasi reallıqları açıq şəkildə dəstəklədi. Bu yanaşma ABŞ-ın regionda sabitliyə, təhlükəsizliyə və praqmatik əməkdaşlığa verdiyi önəmin göstəricisi kimi dəyərləndirilə bilər.

Paralel olaraq Zəngəzur dəhlizi (TRİPP) layihəsinin reallaşması ilə bağlı əldə edilən tarixi razılaşma Azərbaycanla yanaşı, bütün region üçün strateji dönüş nöqtəsi sayılır. Çünki nəzərdə tutulan yeni xəttlər, əlaqələr ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqənin formalaşdırılması ilə yanaşı, həm də Avrasiya tranzit xəritəsini yenidən qurur. Açılacaq bu xətt həm də Azərbaycan vasitəsilə Mərkəzi Asiyanın Qərbə, Aralıq dənizinə və qlobal cənuba daha sərfəli, daha təhlükəsiz çıxış əldə etməsinə imkan verir. Bu marşrut qlobal iqtisadi nizama yeni bir strategiya qazandırır. Prezident İlham Əliyev məktubunda qeyd edib ki, “Biz Sizin Cənubi Qafqazda sülh gündəliyinin təşviqi və dayanıqlı inkişafın təmin edilməsi istiqamətində qətiyyətli səylərinizi də son dərəcə yüksək qiymətləndiririk. Keçən ilin avqustun 8-də Ağ Evdə Sizin təşəbbüsünüzlə baş tutmuş tarixi üçtərəfli görüşün nəticələri regionumuzda tamamilə yeni müsbət ab-hava və vəziyyət yaratdı. Artıq Azərbaycan ilə Ermənistan sülh şəraitində yaşayır və ticarət münasibətləri qururlar. Eyni zamanda regionda sabitliyə və rifaha xidmət edən infrastruktur layihələrinin, xüsusilə də Asiya ilə Avropa arasında alternativ, etibarlı və təhlükəsiz bağlantını təmin edəcək “Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu”nun reallaşmasına ölkənizin göstərdiyi davamlı dəstəyini xüsusi qeyd etmək istərdim”.

**Azərbaycan ilə ABŞ arasında böyük potensiala malik qarşılıqlı faydalı əməkdaşlıq**

Bu əlaqələrin gələcək perspektivdə olduqca vacibdir - Azərbaycan ilə ABŞ arasında münasibətlərin daha da genişlənməsi və yeni mərhələyə qədəm qoyması bütün mənalarda bölgənin sabit inkişafı üçün olduqca vacib amillərdəndir. Prezident İlham Əliyevin məktubunda o da qeyd edilir ki, “Biz Azərbaycan ilə Birləşmiş Ştatlar arasında böyük potensiala malik qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi əhəmiyyət veririk. Əminəm ki, bu potensialdan və mövcud imkanlardan tam bəhrələnərək birgə səylərimizlə dövlətlərarası münasibətlərimizin möhkəmlənməsinə, strateji tərəfdaşlığımızın daha da dərinləşməsinə nail olacağıq”.

Bəli, müasir dövrdə ABŞ ilə Azərbaycan arasında əməkdaşlığın inkişafının perspektivləri aydın və çoxşaxəlidir - rəsmi Vaşinqton ölkəmizin regionda yaratdığı yeni reallıqları yüksək dəyərləndirir. Bu isə ABŞ-ın Azərbaycanın yaxın tərəfdaşı olması həqiqətini növbəti dəfə nümayiş etdirməklə yanaşı, əlaqələri daha da möhkəmləndirməkdə, irəliyə daşımaqda maraqlı olduğunu sübut edir.

Qeyd edilməldir ki, Prezident Trampın birinci prezidentlik dövründə (2017-2021) ABŞ-Azərbaycan münasibətlərində yüksək siyasi dialoq və tərəfdaşlıq müşahidə olunub. Bu dövrdə Tramp administrasiyası Azərbaycanla bağlı müsbət mövqe sərgiləyib və tərəfdaşlıq əlaqələrini vurğulayıb. Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevə mütəmadi olaraq təbrik məktubları göndərib. Bütün məktublarda Tramp Azərbaycanın enerji təhlükəsizliyinə verdiyi töhfələri və beynəlxalq təhlükəsizlik sahəsində əməkdaşlığını yüksək qiymətləndirib.

Tramp administrasiyası Azərbaycanın Cənub Qaz Dəhlizi layihəsindəki rolunu hər zaman dəstəkləyib və bu gün də dəstəkləyir. 44 günlük müharibə dövründə Tramp administrasiyası Ermənistanı dəstəkləməyib və hər zaman olduğu kimi ölkəmizin ərazi bütövlüyünü tanıyıb - birmənalı şəkildə həmin dövrdə ABŞ-Azərbaycan münasibətləri strateji əməkdaşlıq xəttində inkişaf edib. Trampın şəxsi açıqlamaları və administrasiyasının qərarları göstərir ki, Vaşinqton Bakı ilə əməkdaşlığı yüksək qiymətləndirib.

*Pərviz SADAYOĞLU*

# Uşaqların sosial şəbəkələrdən istifadəsi qanunla tənzimlənəcək

## Dəyişikliklər aşağı yaş qruplarının zərərli təsirlərdən qorunması baxımından mühüm addımdır

Dünyanın bir sıra ölkələrinin təcrübəsi nəzərə alınmaqla Azərbaycanda da uşaqların sosial şəbəkələrdən istifadəsinin qanunla tənzimlənməsinə qərar verilib. Bununla bağlı müvafiq qanun layihəsi Milli Məclisdə üçüncü oxunuşda qəbul olunub.

Hazırda uşaqların həyatı yalnız ailə, məktəb və qohumların çevrəsi ilə məhdudlaşmır. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə əlaqədar olaraq hüdudsuz dənizə bənzəyən sosial şəbəkələrin uşaqlar üçün də əlçatanlığı artıb. Əlbəttə, uşaqların həyatına daxil olan və onların ayrılmaq istəmədikləri, sevimli əyləncələrinə çevrilən sosial şəbəkələrin övladlarımızın qarşısında daha çox məlumat almaları, biliklərini artırmaları, yeni ünsiyyət qurmaları, dostlar qazanmaları, dünyanı virtual səyahətə çıxmaları üçün geniş imkanlar açdığını inkar etmək mümkün deyil. Ancaq nəzərə almaq lazımdır ki, uşaqların psixologiyası, həyata baxışları tam formalaşmadığına görə onların sosial şəbəkələrdə zərərli təsirlərə məruz qalma riskləri daha böyükdür. Milli Məclisdə qəbul olunan qanun layihəsi rəqəmsal mühitdə uşaqların hüquq və mənafelərinin daha effektiv qorunması, sosial şəbəkə platformalarından təhlükəsiz istifadənin təmin olunması, habelə platformaların fəaliyyətinin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Qanun layihəsinə əsasən, İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişikliklərin edilməsi qərara alınıb.

**Dövlətin həssas yanaşması**

Ölkəmizdə uşaqların sosial şəbəkələrdən istifadəsinin qanunla tənzimlənməsinə keçid edilməsi Azərbaycan dövlətinin uşaq siyasətinə son dərəcə həssas yanaşması ilə bağlıdır. Respublikamızda uşaqların müdafiəsi və inkişafı, onların hüquqlarının qorunması dövlətin sosial siyasətində mühüm yer tutur. Dövlət uşaq siyasətinin başlıca prinsipləri uşaqların keyfiyyətli təhsil və müasir tələblərə cavab verən tibbi xidmətlərlə təmin edilməsi, hərtərəfli qayğı ilə əhatə olunması, yüksək mənəvi dəyərlərə əsaslanan sosial mühitdə böyüməsi üçün zəruri şərait yaradılması, uşaqların şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasıdır. Uşaqların sağlam böyüməsi, onların baxımsızlığı hallarının aradan qaldırılması, valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud, aztəminatlı ailələrdən olan uşaqların sosial müdafiəsinin təmin edilməsi prinsipləri dövlətin qəbul etdiyi sosialyönümlü proqramlarda xüsusi yer tutur. Ölkəmiz müstəqilliyinin ilk illərində BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına qoşularaq, uşaqlarla bağlı milli qanunvericiliyi beynəlxalq normalara uyğun təkmilləşdirib. Bununla yanaşı, BMT-nin "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyi"ndə əks olunan və 2016-cı ildən qüvvəyə minmiş Dayanıqlı İnkişaf Məqsədləri (DİM) uşaqların rifahının yüksəlməsi istiqamətində fəaliyyətin daha da gücləndirilməsini zəruri edir.

Ölkənin iqtisadi inkişaf tempi DİM məqsədlərinə uyğun olaraq aztəminatlı ailələrdən olan, eləcə də sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların hərtərəfli inkişafı istiqamətində tədbirlərin gücləndirilməsinə imkan verir. "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası" ölkəmizdə uşaq hüquqları sahəsində mövcud hüquqi bazanı təkmilləşdirməklə, uşaqların müdafiəsinin işlək mexanizminin yaradılması, erkən uşaqlıq dövründə onların inkişafına dövlət dəstəyi göstərilməsi, çətin həyat şəraitində olan uşaqların müdafiəsi, uşaqların sağlam mühitdə böyüməsi və tərbiyəsi, uşaqlarla bağlı həyata keçirilən tədbirlərin monitorinq və qiymətləndirilməsi sisteminin inkişafı kimi əsas istiqamətləri və bütövlükdə milli səviyyədə uşaq siyasətinin əsas hədəflərini müəyyən edir. Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı uğurla reallaşdırılıb. Həmçinin 1998-ci ildə qəbul olunan "Uşaq hüquqları haqqında" Qanun ölkədə uşaqların hüquqlarının təmin olunmasına geniş imkanlar açır.

Uşaqların sosial şəbəkələrdən istifadəsinin qanunla tənzimlənməsi isə bütün dünyada olduğu kimi, Azərbaycan üçün də yeni çağırışdır. Sosial şəbəkələr vasitəsilə dünyagörüşü tam formalaşmamış uşaqlara zərərli təsirlərin ötürülməsi riskləri kifayət qədər böyükdür. Onlara cəlbedici paylaşımlarla zərərli vərdişlər aşılana, o cümlədən cinayətkarlığa çağırışlar edilə, ailə sirlərinin alınmasına cəhdlər göstərilə bilər.

Yeni qanun bu kimi təhdidlərin qarşısının alınmasına hesablanıb. Heç bir halda yol verməmək olmaz ki, övladlarımızın sağlamlığı, rifahı, gələcəyi sosial şəbəkələrdən asılı olsun. Milli Məclisdə üçüncü oxunuşda qəbul olunan qanunda nəzərdə tutulan tənzimləmə mexanizmi uşaqları sosial şəbəkələrin zərərli risklərindən qorumağı hədəfləyir. Uşaqların yetkinlik yaşına çatana qədər bu təsirlərdən uzaq olmaları onların fiziki və psixoloji sağlamlığına, düzgün inkişafına və davranışına, sağlam baxışla yetişmələrinə imkan verəcək. Burada ailələrin üzərinə də böyük yük düşür. Valideynlər uşaqlarının rəqəmsal mühitdə fəaliyyətlərinə ilk növbədə məsuldurlar.

**Uşaqların zərərli təsirlərdən qorunması əsas məqsəddir**

Milli Məclisdə müvafiq qanunun




qəbul edilməsi ölkəmizdə uşaqların sosial şəbəkələrin zərərli təsirlərindən qorunması kimi aktual məsələyə həssas yanaşmasının ilk ifadəsi deyil. Xatırladaq ki, Prezident İlham Əliyev 27 fevral 2026-cı il tarixində "Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında" ayrıca sərəncam imzalayıb. Sənəddə vurğulanır ki, sosial münasibətlərin sürətlə rəqəmsallaşması və sosial şəbəkələrin uşaqların gündəlik həyatına getdikcə daha erkən yaşda daxil olması, həmin şəbəkələr vasitəsilə informasiyanın istehsalı, yayılması və istehlakının miqyasının artması bu sahədə hüquqi tənzimləmənin mövcud vəziyyətinin müasir texnoloji, sosial və təhlükəsizlik çağırışları baxımından təhlilini və təkmilləşdirilməsini zəruri edir.

Milli Məclisdə qəbul olunan qanunun bu sahədə dövlət siyasətinin ardıcıllığını təsdiqləyir. Bəhs olunan qanunla 16 yaşadək uşaqların sosial platformalarda hesab yaratmasına yol verilmir, 16-18 yaş arası uşaqlar isə bunu valideyn icazəsi ilə edə bilərlər. Qanunvericiliyə edilən dəyişikliklər heç bir halda uşaq hüquqlarının pozulması və yaxud sosial şəbəkələrə qadağa qoyulması anlamına gəlmir. Əksinə, yeni qanun layihəsi dövlət tərəfindən uşaqların müdafiəsinin gücləndirilməsi, onların gələcəyinə qayğının davam etdirilməsi, uşaqların yetkinlik yaşına çatana qədər sosial şəbəkə mühitində fəaliyyət üçün hazırlanması, daha sonrakı dövrdə isə valideyn nəzarəti ilə icazə verilməsi və digər müsbət məqamları əks etdirir. Uşaqların zərərli təsirlərdən qorunması, onların sağlam böyüməsi üçün hərtərəfli şəraitin yaradılması və dəstəyin verilməsi dövlətin sosial siyasətinin tərkib hissəsidir. Bu məsələ fərd, ailə, cəmiyyət və dövlət üçün mühüm əhəmiyyət daşıyır. Bu məqamda qeyd etmək yerinə düşər ki, uşaqların hüquqları qorunmaqla onlara münasibətdə digər sahələrdə də yaş məhdudiyyətləri var (uşaqlara siqaret, alkoqol, soyuq silah (bıçaq) satışına, fərqli məzmunlara çıxışına məhdudiyyət və s.) və bu tədbirlər uşaqların sağlamlığı və rifahı üçün tətbiq olunub. Müasir rəqəmsal dövrdə bu mexanizm sosial platformalara münasibətdə də əksini tapmalıdır.

**Dünya ölkələrində qanunlar sərtləşdirilir**

Dünya ölkələrində uşaqların sosial şəbəkələrdən istifadəsinin qanunla tənzimlənməsinə fərqli yanaşmalar sərgilənir. Getdikcə daha çox ölkədə uşaqların sosial platformalardan istifadəsinə qanunla məhdudiyyətlər qoyulur. 2025-ci ilin dekabrında Avstraliyada müvafiq qanun qəbul edilib. Fransa 2026-cı ilin yanvar-mart aylarında uşaqların sosial şəbəkələrdə olmasına yaş məhdudiyyəti tətbiq edən dünyada ikinci, Avropada birinci dövlət olub. Hazırda müxtəlif ölkələrdə müxtəlif yaşdan belə tənzimləmələrin tətbiqi imkanlarına baxılır. Danimarka 18, İspaniyada 16, Fransada 15, ABŞ-da federal səviyyədə 17, ştatlarda isə Kaliforniya, Texas, Nyu-York, Tennessi və Yutada 18, Kolorado, Corciya, Luizianada 16, Floridada 14 yaş məhdudiyyətləri, eləcə də İrlandiyada OnlineSafetyCode və Böyük Britaniyada OnlineSafety Act kimi yanaşmalar mövcuddur. Almaniya, Portuqaliya, Norveç, Türkiyə, Kanada, Yeni Zelandiya, Malayziya, İndoneziya və Hindistan sosial şəbəkə platformalarında yaş məhdudiyyətləri müəyyənləşdirmək üçün qanunvericilik qərarları qəbul edib və ya etməkdədir. Qonşularımız olan Qazaxıstan və Özbəkistanda da analoji qanunvericilik təşəbbüsləri mövcuddur. Norveç 2026-cı ilin sonuna qədər sosial media platformaları üçün yaş məhdudiyyətləri tətbiq etməyi planlaşdırır.

Yeri gəlmişkən, dünya miqyasında tanınan siyasətçilər də uşaqlar üçün sosial şəbəkələrdən gözlənilən risklərə diqqət çəkib və öz narahatlıqlarını ifadə ediblər. "Bəzi rəqəmsal paylaşma tətbiqlərinin uşaqlarımızın zehnini pozduğu və sosial media platformalarının, açıq desək, zibilxanalara çevrildiyi bir dövrdə yaşayırıq. İnternetin nəzarətsiz və sərhədsiz dünyasına alqoritmlərin manipulyativ gücünü əlavə etdikdə mürəkkəb bir problem ortaya çıxır", - deyə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan vurğulayıb.

Artıq Avropa rəsmiləri də sosial şəbəkələrin uşaqlar və yeniyetmələr üçün ciddi təhlükələr yaratmasından narahatlıqlarını gizlətmirlər. Bununla bağlı mövqeyini bildirən Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen deyib: "Məsələ gənclərin sosial mediaya çıxışının olub-olmamasında deyil. Məsələ sosial medianın gənclərə çıxışının olub-olmamasındadır".

Norveçin Baş naziri Jonas Gar Store isə bildirib ki, biz bu qanunvericiliyi uşaqların uşaq kimi yaşaya biləcəyi bir uşaqlıq dövrü istədiyimiz üçün tətbiq edirik. Oyun, dostluq və gündəlik həyat alqoritmlər və ekranlar tərəfindən ələ keçirilməməlidir. Bu, uşaqların rəqəmsal həyatını qorumaq üçün vacib bir tədbirdir. İspaniyanın Baş naziri Pedro Sançez da narahatlığını dilə gətirib. O, "Real dünyada qanuni olmayan şey virtual dünyada qanuni ola bilməz", - deyə bildirib.

*Mübariz FEYİZLİ*

# BMT Azərbaycanla tərəfdaşlığın gücləndirilməsində maraqlıdır



İyulun 6-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycanda yeni təyin olunmuş rezident-əlaqələndiricisi Dmitri Şlapaçenko ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan ilə BMT arasında mövcud əməkdaşlıq gündəliyi, tərəfdaşlığın perspektivləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.



Nazir Ceyhun Bayramov Azərbaycan ilə BMT arasında uzunmüddətli və səmərəli əməkdaşlığın müxtəlif istiqamətlər üzrə uğurla inkişaf etdiyini qeyd edib. Bildirilib ki, gələn il Azərbaycan ilə BMT arasında əməkdaşlığın qurulmasının 35 illiyi qeyd olunacaq və bu əlamətdar tarix tərəfdaşlığın daha da möhkəmləndirilməsi baxımından mühüm imkanlar yaradır.

Tərəflər ölkəmizin qlobal çağırışların həllinə töhfə vermək istiqamətində fəal rolunu vurğulayaraq, Azərbaycanın son illərdə bir sıra mühüm beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etdiyini, xüsusilə COP29-un və Ümumdünya Şəhərsalma Forumunun yüksək səviyyədə təşkilinin çoxtərəfli əməkdaşlığa verilən önəmin göstəricisi olduğunu bildiriblər. Bu çərçivədə 2026-2030-cu illəri əhatə edən Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədinin imzalanmasının BMT sistemi ilə əməkdaşlığın yeni mərhələsini formalaşdırdığı qeyd olunub. Eyni zamanda, Azərbaycanın gələcəkdə də bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi edəcəyi diqqətə çatdırılıb.

Görüşdə Azərbaycanın Avropa ilə Asiya arasında etibarlı körpü rolundan, nəqliyyat və kommunikasiya əlaqələrinin genişləndirilməsi istiqamətində həyata keçirilən layihələrdən, Orta Dəhlizin artan əhəmiyyətindən, eləcə də Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığın inkişafı, o cümlədən "C6" əməkdaşlıq formatı çərçivəsində yaranan yeni imkanlardan bəhs olunub.

Regional təhlükəsizlik məsələlərinə toxunan nazir postmünaqişə dövründə bölgədə yaranmış reallıqlar, azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri, keçmiş məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz və ləyaqətli qayıdışının təmin edilməsi istiqamətində görülən tədbirlər barədə məlumat verib.

Azərbaycan-Ermənistan normallaşma prosesi barədə danışan nazir dayanıqlı sülhün təmin olunması üçün mövcud imkanlardan istifadə edilməsinin vacibliyini vurğulayıb.

BMT-nin yeni rezident-əlaqələndiricisi Dmitri Şlapaçenko Azərbaycanda fəaliyyət göstərməkdən məmnunluğunu ifadə edib, BMT-nin ölkə ilə əməkdaşlığın bütün istiqamətlər üzrə daha da inkişaf etdirilməsi və Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi sahəsində tərəfdaşlığın gücləndirilməsində maraqlı olduğunu bildirib.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Azərbaycan Rusiyaya nota verib



İyulun 6-da Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov Xarici İşlər Nazirliyinə çağırılıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı, iyulun 5-də axşam saatlarında Ukraynanın Mikolayiv vilayətində yerləşən SOCAR yanacaqdoldurma məntəqəsinin dron hücumuna məruz qalması ilə əlaqədar kəskin etiraz bildirilib və Rusiya tərəfinə müvafiq nota təqdim edilib.

Görüşdə, sözügedən dron hücumunun ilk hal olmadığı, bundan əvvəl də qazpaylayıcı kompressor stansiyası və Odessada neft bazasına hücumlar daxil olmaqla, Ukraynada SOCAR-a məxsus obyektlərin hərbi zərbələrə və hərbi əməliyyatların digər dağıdıcı təsirlərinə məruz qaldığı, nəticədə əhəmiyyətli maddi ziyan dəydiyi, şirkətin əməkdaşları arasında yaralananlar olduğu xatırlanıb.

Dəfələrlə xəbərdarlığa baxmayaraq, belə halların davam etməsinin hücumların məqsədyönlü şəkildə həyata keçirildiyinə dəlalət etdiyi bildirilib.

Görüşdə, həmçinin Kiyevdəki səfirliyimizin və Xarkov şəhərində yerləşən fəxri konsulluğun binalarının zərər gördüyü bir neçə hava zərbələrinə diqqət yönəldilib, Vyana Konvensiyalarına uyğun olaraq diplomatik və konsulluq nümayəndəliklərinin binalarının qorunması üzrə öhdəliklərə ciddi riayət edilməsinin vacibliyi vurğulanıb.

Rusiya tərəfi qeyd olunan bütün faktlar üzrə hərtərəfli araşdırma aparmağa, baş vermiş hallarla bağlı müvafiq izahat verməyə, habelə mülki obyektlərin və diplomatik nümayəndəliklərin qorunması üzrə beynəlxalq öhdəliklərə riayət etməyə çağırılıb.

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib



İyulun 6-da Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib. İclasda YAP Sədərək rayon təşkilatının sədri Arif Mikayıl oğlu Qasımovun, Şahbuz rayon təşkilatının sədri Rizvan Təmo oğlu Məmmədovun, Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəli oğlu Vəliyevin, Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Müslüm oğlu Balaqadaşovun və Qusar rayon təşkilatının sədri David Nurəddin oğlu İbrahimxəlilovun təqaüd yaşına çatmaları ilə əlaqədar tutduqları vəzifədən azad olunmaları məsələsinə baxılıb və müvafiq qərarlar qəbul olunub.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov partiyanın təşkilatlanması və inkişafında mühüm xidmətləri olan həmin şəxslərin Heydər Əliyev ideyalarına daim sadiq olduqlarını vurğulayaraq bundan sonra da Ulu Öndərin zəngin dövlətçilik irsinin gənc nəslə aşılanması, Prezident İlham Əliyevin siyasətinin təbliği yolunda bilik, bacarıq və səylərini əsirgəməyəcəklərinə, həmçinin öz təcrübələri ilə rayon təşkilatlarının işinə yaxından dəstək verəcəklərinə əminliyini ifadə edib, onlara xatirə hədiyyələrini təqdim edib.

Daha sonra İlqar Süleyman oğlu İlyasovun partiyanın Qaradağ, Vüsalə Abazər qızı Əliyevanın Sədərək, Nicat Zaur oğlu Ələkbərovun Şahbuz, Zamir Sadəddin oğlu Güvəndiyevin Şəmkir, Emil Nəcəf oğlu Tağıyevin Xaçmaz və Kamran Miran oğlu Əmirovun Qusar rayon təşkilatına sədr təyin edilməsi məsələsinə baxılıb.

YAP Sədrinin müavini Əli Əhmədov, İdarə Heyətinin üzvləri Hikmət Məmmədov və Azər Badamov çıxış edərək namizədliyi irəli sürülən şəxslərin bu vəzifəyə layiq olduqlarını bildirib və onlara fəaliyyətlərində uğurlar arzulayıblar.

Müzakirələrdən sonra müvafiq qərarlar qəbul olunub. Yeni təyin olunmuş şəxslər göstərilən etimada görə partiyanın Sədri, ölkə başçısı cənab İlham Əliyevə dərin təşəkkürlərini ifadə edərək öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün çalışacaqlarını bildiriblər.

Daha sonra cari məsələlərlə bağlı müzakirələr aparılıb və müvafiq qərarlar qəbul olunub.









# YAP Mərkəzi Aparatında tədbir keçirilib






İyulun 6-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin təşəbbüsü ilə Çin Kommunist Partiyasının (ÇKP) yaradılmasının 105-ci ildönümü münasibətilə tədbir keçirilib.



Tədbirdə Çinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Lu Mey və səfirliyin əməkdaşları, YAP İdarə Heyətinin, Veteranlar Şurasının və Gənclər Birliyinin üzvləri, Mərkəzi Aparatın əməkdaşları və yerli təşkilat sədrləri iştirak ediblər.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan-Çin münasibətlərinin tarixi ənənələrə, möhkəm dostluğa və qarşılıqlı etimada əsaslandığını vurğulayıb. O, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin siyasi iradəsi sayəsində ildən-ilə möhkəmlənən dövlətlərarası münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirib.

Partiya diplomatiyasının qarşıda duran hədəflərin gerçəkləşməsinə mühüm töhfələr verdiyini söyləyən Tahir Budaqov 2024-cü ilin noyabr ayında Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında Əməkdaşlıq memorandumunun imzalanmasının əhəmiyyətini diqqətə çatdıraraq məqsədyönlü birgə fəaliyyətin müştərək maraqların təmininə xidmət etdiyini bildirib.

YAP Sədrinin müavini nümayəndə heyətlərinin mütəmadi səfərlərinin ölkələr və siyasi partiyalar arasında münasibətlərin mövcud vəziyyətinin qiymətləndirilməsi və işbirliyinin əhatə dairəsinin genişləndirilməsi xüsusunda önəmini vurğulayıb.

Tahir Budaqov YAP nümayəndə heyətinin cari ilin 23 iyun - 2 iyul tarixlərində Çinə səfəri çərçivəsində keçirilmiş məhsuldar görüşlərin çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi baxımından mühüm önəm daşıdığını bildirib. O, səfər zamanı göstərilən yüksək diqqətə görə nümayəndə heyəti adından Çin Kommunist Partiyasının rəhbərliyinə təşəkkürünü bildirib.







YAP Sədrinin müavini zəngin və şərəfli inkişaf yolu keçən ÇKP-nin 105-ci ildönümü münasibətilə təbriklərini çatdıraraq Çin Xalq Respublikasının inkişafı naminə həyata keçirilən əzmkar fəaliyyətin bundan sonra da uğurla davam edəcəyinə əminliyini ifadə edib və dost Çin xalqına əmin-amanlıq, rifah və firavanlıq arzulayıb.

Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey iki ölkənin liderləri tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan-Çin münasibətlərinin bütün sahələrdə yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğunu bildirib.

Çin Kommunist Partiyasının inkişaf yolu və fəaliyyət prinsiplərindən ətraflı bəhs edən səfir ÇKP-nin Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığa böyük önəm verdiyini vurğulayıb. O, yüksəksəviyyəli siyasi dialoq şəraitində nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin davam etdirilməsinin və ümumi maraq doğuran məsələlər üzrə təmasların daha da gücləndirilməsinin vacibliyini qeyd edib.

Səfir Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin sonuncu səfərinin də uğurlu olmasının böyük məmnunluq doğurduğunu diqqətə çatdıraraq YAP nümayəndələrinə təşəkkürünü bildirib və müvəffəqiyyətlər arzulayıb.

YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) rektoru, akademik Urxan Ələkbərov istər Cənubi Qafqaz regionunun aparıcı dövləti olan Azərbaycanın, istərsə də dünyada əsas güc mərkəzlərindən biri kimi çıxış edən Çinin özünəməxsus inkişaf modelinə malik olduğunu nəzərə çatdırıb. O, hər iki ölkənin tərəqqi yolunun, o cümlədən əldə etdiyi sosial-iqtisadi nailiyyətlərin beynəlxalq səviyyədə böyük maraq doğurduğunu bildirib.

Rektor cari ilin may ayında YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində Dövlət İdarəçilik Akademiyası ilə ÇKP Mərkəzi Komitəsinin Partiya Məktəbi arasında Anlaşma Memorandumunun imzalanmasının dövlət idarəçiliyi, strateji planlaşdırma və kadr hazırlığı sahəsində təcrübə mübadiləsi baxımından önəmini vurğulayaraq qarşıda duran vəzifələrin uğurla həyata keçiriləcəyinə əminliyini bildirib.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Vüqar İskəndərov Azərbaycan-Çin əlaqələrinin vacib tərkib hissəsi olaraq YAP ilə ÇKP arasında işbirliyinin, həmçinin qanunverici orqanlarda dostluq qruplarının səmərəli fəaliyyətinin əhəmiyyətini qeyd edib. O, YAP nümayəndə heyətinin sonuncu səfərinin olduqca səmərəli keçdiyini bildirərək qarşılıqlı fikir və təcrübə mübadiləsinin hakim partiyalar arasında əməkdaşlığın mövcud vəziyyətinin və inkişaf perspektivlərinin dəyərləndirilməsi baxımından xüsusi önəm daşıdığını diqqətə çatdırıb.

Sonda cari ilin 23 iyun - 2 iyul tarixlərində Çində səfərdə olmuş partiya nümayəndələri öz təəssüratlarını bölüşüblər.

# Kolonializmdən əziyyət çəkən ölkələrin ümid yeri...

## Bakı Təşəbbüs Qrupunun yaranmasının 3 ili tamam olub




2023-cü il iyulun 6-da Qoşulmama Hərəkatının Əlaqələndirmə Ofisinin Nazirlər Toplantısı çərçivəsində Bakıda keçirilmiş "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" beynəlxalq konfransda tədbir iştirakçılarının yekdil qərarı ilə Bakı Təşəbbüs Qrupu (BTQ) təsis edilib.

AZƏRTAC-ın məlumatına görə, BTQ bu 3 il ərzində dünyanın siyasi gündəmində demək olar ki, unudulmuş kolonializm və neokolonializm problemlərini yenidən gündəmə gətirib, dekolonizasiya prosesinin əsas hərəkətverici platformasına çevrilib. Bu xüsusda müstəqillik uğrunda legitim mübarizə aparan tərəflərə dəstək verilib, kolonizə edilmiş xalqların azadlığı istiqamətində ardıcıl və nəticəyönümlü fəaliyyət göstərilib.

Nəticədə müstəmləkəçilikdən əziyyət çəkən xalqların səsi qlobal gündəmə daşınıb, nüfuzlu beynəlxalq platformalarda müzakirə edilib. BTQ-nin ardıcıl və məqsədyönlü fəaliyyəti bu məsələlərin müvafiq mərkəzi hökumətlər səviyyəsində də diqqət mərkəzinə gətirilməsinə töhfə verib. Bu baxımdan Fransada Korsikanın muxtariyyət statusu ətrafında müzakirələrin aktivləşməsi, Yeni Kaledoniyanın gələcək statusu ilə bağlı proseslərin yeni fazaya daxil olması, kolonial idarəçilikdən miras qalmış və "köləlik qanunu" kimi xarakterizə edilən hüquqi mexanizmlərin ləğv edilməsi, keçmiş müstəmləkələrdən oğurlanmış mədəni irsin geri qaytarılması hallarının çoxalması, habelə digər dənizaşırı ərazilərin hüquqi-siyasi vəziyyətinə dair müzakirələrin yenidən gündəmə gəlməsi mühüm irəliləyişlər kimi qeyd oluna bilər.

Təsadüfü deyildir ki, Azərbaycan dünyada kolonializmə qarşı mübarizənin mərkəzi, baş qərargahı kimi tanınır və müstəmləkəçilikdən əziyyət çəkən ərazilər ölkəmizə ümid yeri kimi baxır.

Fəaliyyət göstərdiyi üç il ərzində BTQ tərəfindən 40-dan çox beynəlxalq konfrans təşkil edilib, bunlardan 10-u BMT-nin müxtəlif qərargahlarında keçirilib. Eyni zamanda, 50-dən çox nəşr hazırlanıb, 10 əməkdaşlıq memorandumu imzalanıb. Bu dövr ərzində BTQ 25-dən çox ölkə və Dənizaşırı ərazi ilə sıx əməkdaşlıq əlaqələri qurulub.

Ən böyük uğurlar sırasında paytaxtımızda Beynəlxalq Dekolonizasiya Cəbhəsinin - FID (fransızca: Front international de decolonisation) təsis edilməsini göstərmək olar. Beynəlxalq Dekolonizasiya Cəbhəsinin təsis qurultayında Fransa və Niderland müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib regionu, Antil adaları qrupu, Boneyra və Sen-Martindən olan 17-dən çox siyasi partiya və müstəqillik hərəkatının nümayəndələri iştirak ediblər. Vahid cəbhənin yaradılması kolonizə edilmiş xalqların səylərinin birləşdirilməsi, həmrəyliyin gücləndirilməsi və birgə mübarizə aparması istiqamətində mühüm addımlardan biri kimi yadda qalıb.

2024-cü il oktyabrın 22-də BMT-nin Cenevrə Ofisində İnsan Hüquqları Komitəsinin 142-ci sessiyası çərçivəsində BTQ tərəfindən "Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt və Fransız müstəmləkəçiliyinin nəticələri" adlı hesabat Komitəyə təqdim edilib. Sözügedən hesabatda təqdim edilmiş faktlara (insan hüquqların pozulması halları) əsasən BMT-nin İnsan Hüquqları Komitəsi Fransadan 2024-cü ilin may ayında Kanakidə - Yeni Kaledoniyada baş vermiş hadisələrə dair hesabat tələb edib.

2025-ci ilin may ayında Bakı Təşəbbüs Qrupu BMT-nin Afrika Mənşəli İnsanların Daimi Forumuna və İnsan Hüquqları üzrə Ali Komissarlığına "Afrika mənşəli insanların beynəlxalq ikinci onilliyi" çərçivəsində həyata keçirilmiş fəaliyyətlər barədə öz hesabatını təqdim edib. Daha sonra BTQ-nin hesabatı BMT Baş katibinin 2025-ci il üzrə təqdim etdiyi "Afrika mənşəli insanların beynəlxalq ikinci onilliyinin həyata keçirilməsi üzrə fəaliyyət proqramı"na dair məruzəsində qeyd olunub. Bu fakt təşkilatın fəaliyyətinin beynəlxalq səviyyədə diqqətlə izlənildiyini və BMT sistemində tanındığını göstərən mühüm göstəricidir. Baş katibin hesabatında BTQ-nin məhz dekolonizasiya və kiçik adalarda yaşayan xalqların müstəqilliyi istiqamətində fəaliyyət aparan qlobal vətəndaş cəmiyyətləri sırasında yeganə QHT kimi qeyd olunması xüsusi əhəmiyyət kəsb edir. Bu, həm də BTQ-nin beynəlxalq miqyasda etimad edilən tərəfdaş olduğunu və kolonializmə məruz qalan xalqların haqq səsinin dünyaya çatdırılmasında mühüm platforma rolunu oynadığını bir daha təsdiqləyir. Eyni zamanda, bu istinad BTQ-nin fəaliyyətinin yalnız regional deyil, qlobal dekolonizasiya gündəliyi baxımından da əhəmiyyət daşıdığını nümayiş etdirir.

Fəaliyyətində dekolonizasiya ilə yanaşı insan hüquqlarının müxtəlif aspektlərinə xüsusi önəm verən BTQ 2026-cı il iyunun 24-də ABŞ-nin paytaxtı Vaşinqton şəhərində Konqres binasında Qayıdış Hüququ mövzusunu müzakirəyə çıxararaq azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə siyasətinin beynəlxalq gündəmə daşınmasına start verib.

Təşkilat beynəlxalq qurumlar, akademik dairələr və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığını davamlı şəkildə genişləndirməkdədir. BTQ-nin təşəbbüsü ilə müxtəlif regionlardan olan yerli xalqların nümayəndələri, milli azadlıq hərəkatları, parlament üzvləri, elm xadimləri, beynəlxalq ekspertlər, hüquq müdafiəçiləri və vətəndaş cəmiyyəti institutları bir araya gəlirlər.

# COP29-un gözəl mirası unudulmur






## İqlim diplomatiyasında formalaşdırdığımız təcrübə qlobal səviyyədə faydalı model kimi qiymətləndirilir

COP29-a uğurla ev sahibliyi edən Azərbaycanda iqlim, ətraf mühit məsələləri ilə bağlı daha bir beynəlxalq tədbir keçirilə bilər. Bu günlərdə London İqlim Həftəsi çərçivəsində baş tutan görüşlərdə Şərqi Avropa İqlim Həftəsinin Bakıda təşkili məsələsi müzakirə olunub və tədbirlə bağlı ilkin məsləhətləşmələr aparılıb. Bu barədə COP29-un Sədrliyindən məlumat verilib.

London İqlim Həftəsi çərçivəsində Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev ilə Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibi Antonio Quterreş arasında görüş keçirilib. Görüşdə bildirilib ki, ölkə COP29-dan sonra da beynəlxalq iqlim danışıqlarında və çoxtərəfli əməkdaşlıq platformalarında təşəbbüslərlə çıxış edir, iqlim fəaliyyətinin gücləndirilməsinə töhfə verir. Həmçinin Azərbaycanın iqlim diplomatiyasında formalaşdırdığı təcrübənin qlobal səviyyədə faydalı model kimi qiymətləndirildiyi vurğulanıb.

**İqlim çağırışlarının heç vaxt olmadığı qədər artan aktuallığı**

Hazırda dünya üzrə iqlim dəyişikliyi ilə bağlı çağırışların aktuallığı heç vaxt olmadığı qədər artıb ki, bu da təsadüfi deyil. Ekspertlər kədərli müqayisələr aparırlar. Bildirilir ki, əgər bir vaxtlar qlobal səviyyədə əhali artımına, insanların həyat tərzinə, sosial vəziyyətinə daha çox müharibələr mənfi təsir göstərirdisə, indi burada iqlim dəyişikliyi önə çıxmaqdadır. Dünyanı təhdid edən iqlim dəyişikliyinin qlobal istiləşmə və sürətli sənaye inkişafının nəticəsi olaraq yarandığı bildirilir. Uzun illərdir ki, dünyada artan əhali neft, qaz, kömür yandırır. Eyni zamanda, avtomobillərin sayı sürətlə artır, güclü sənayeləşmə prosesi gedir. Bütün bu kimi fəaliyyətlər atmosferə daha çox həcmlərdə tullantıların, karbon qazının buraxılması ilə nəticələnir. Eyni zamanda, qlobal istiləşmənin sürətlənməsi həyəcan təbili çalmağa əsas verir. 2011-2020-ci illər arasında buzlaqların əriməsi əvvəlki 10 illərlə müqayisədə 75 faiz artıb. Son vaxtlarda dünya tarixində ən isti illər qeydə alınır. Təbii fəlakətlərin - isti küləklərin, qasırğaların, yağıntıların, sel və daşqınların sayı artıb. Okeanın səthi əvvəllər 1000 metr dərinliyə qədər qızırdısa, artıq bu göstərici 2000 metr dərinliyə çatır.

Fəsadlar da çox ağırdır. Ekstremal hava şəraiti, hidroloji və iqlim hadisələri insan təhlükəsizliyinə, milli iqtisadiyyatlara, şəhər və kənd mühitinə, qida və su təhlükəsizliyinə öz mənfi təsirlərini göstərir. Təəssüf ki, biz belə mənfi təsirlərin statistikasında sürətli artım dinamikasını izləyirik. Ətraf mühitin çirklənməsi, müxtəlif təbiət hadisələri hər il təxminən 13 milyon insanın həyatına son qoyur.

Azərbaycan da qlobal iqlim dəyişmələrindən əziyyət çəkən ölkələr sırasında yer alır. “Azərkosmos”un peyk görüntülərinə dayanaraq apardığı hesablamalar göstərir ki, ölkədəki su anbarlarının çoxunda azalmalar baş verib. Eyni zamanda, Xəzər də sürətlə geri çəkilərək sahil zolağında kədərli izlər buraxır.

**Qlobal təhdidə qarşı Azərbaycanın beynəlxalq həmrəylik çağırışı**

Londonda İqlim Həftəsi çərçivəsində baş tutan görüşdə Azərbaycanın qlobal iqlim gündəliyində fəal rol oynadığına xüsusi diqqət çəkilib ki, bu da təsadüfi deyil. Azərbaycanın mövqeyi belədir ki, qlobal təhdidlər fonunda hər bir ölkə öz məsuliyyətini anlayaraq iqlim dəyişikliyinə qarşı milli səviyyədə özünün konkret gündəliyini müəyyənləşdirməlidir. Bu mənada, məsuliyyətli dövlət olan Azərbaycanın yanaşması təqdirəlayiqdir. Respublikamız iqlim dəyişikliyi ilə bağlı BMT-nin çağırışlarına fəal şəkildə qoşulan ölkələr sırasında yer alır. Azərbaycan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına 1995-ci ildə qoşulub və Konvensiyanın Kioto Protokolunu 2000-ci ildə təsdiqləyib. Kioto protokolu üzrə öhdəliklərin yerinə yetirilməsinin 2-ci dövrü üçün qəbul edilmiş Doha əlavəsi 14 aprel 2015-ci ildə Milli Məclis tərəfindən ratifikasiya edilib və ölkə Prezidenti tərəfindən təsdiqlənib. Digər bir mühüm beynəlxalq sənəd olan Paris Sazişi isə 2016-cı il oktyabrın 28-də Milli Məclis tərəfindən ratifikasiya olunub.

Respublikamız BMT-nin çağırışına qoşularaq neft sənayesində “sıfır emissiya” hədəfi müəyyənləşdirib. Qəbul olunan strategiyaya əsasən, indiki mərhələdə ətraf mühit məsələləri ölkəmizin beş milli prioriteti sırasında yer alır. Respublikamız 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir.

**BMT-dən dəyərləndirmə: COP29-un nəticələri yüksək qiymətə layiqdir**

COP29 artıq tarix olsa da, dünyada onun gözəl mirası unudulmur. Londonda baş tutan görüşdə BMT-nin Baş katibi COP29 çərçivəsində əldə olunmuş nəticələri yüksək qiymətləndirərək bu uğurlardan məmnunluğunu ifadə edib. Antonio Quterreş Azərbaycanın COP29 Sədrliyi dövründə qazandığı təcrübənin gələcək iqlim prosesləri üçün mühüm əhəmiyyət daşıdığını vurğulayıb. O, bu təcrübənin COP31-ə ev sahibliyi edəcək Türkiyə, eləcə də növbəti COP sədrlikləri ilə paylaşılmasının vacibliyini qeyd edib.

Həqiqətən də, məsuliyyətli dövlət olan Azərbaycan hazırkı dövrdə yaranan qlobal iqlim çağırşlarına cavab olaraq BMT-nin ən böyük tədbirlərindən biri sayılan COP29-a yüksək səviyyədə ev sahibliyi həyata keçirdi. Əsas məqam isə Bakıda COP tarixində bir sıra ilklərə imza atılması və dünya üçün son dərəcə böyük əhəmiyyət daşıyan substantiv nəticələrin əldə olunmasıdır. Bu sırada aşağıdakıları xüsusi olaraq qeyd etmək istərdik:

- Hər il inkişaf etməkdə olan ölkələrə 1,3 trilyon dollar iqlim maliyyəsini yönəltməyi nəzərdə tutan yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi (BMG) barədə razılığın əldə olunması. Bakı Maliyyə Məqsədi, inkişaf etmiş ölkələrin 2035-ci ilə qədər inkişaf etməkdə olan dövlətlər üçün hər il ən azı 300 milyard dollar məbləğində vəsaitin səfərbər olunmasına rəhbərlik etməsini nəzərdə tutan əsas hədəfləri müəyyənləşdirir. Xatırladaq ki, bu göstərici əvvəllər 100 milyard dollar olub.
- 2015-ci ildən bəri ilk dəfə olaraq COP29-da Paris Sazişinin 6-cı maddəsi tam şəkildə işlək vəziyyətə gətirildi. 6-cı maddə ilə bağlı yekdilliklə qəbul edilən qərarlar ətraf mühitin bütövlüyünü, şəffaflığı və karbon bazarlarının möhkəmliyini təmin etməkdə mühüm rol oynayacaq. Digər tərəfdən, 6-cı maddə üzrə əməkdaşlıq emissiyaların azaldılmasını tənzimləyə biləcək.
- 2022-ci ildə təşəbbüs kimi irəli sürülmüş və iqlim dəyişmələrinin təsirlərinə ən çox məruz qalan ölkələrə maliyyə yardımını nəzərdə tutan İtki və Zərər Fondunun tam şəkildə institutlaşdırılması. İtki və Zərər Fonduna ölkələr tərəfindən vəd edilən maliyyə vəsaitinin həcmi 730 milyon dollardan çoxdur. İqlim dəyişmələrinin fəsadlarının kiçik ada dövlətlərinə təsirlərinin yaratdığı çətinliklərin həlli Prezident İlham Əliyev tərəfindən COP29 Sədrliyinin prioritetlərindən biri kimi müəyyən olunub. Bu baxımdan, İtki və Zərər Fondunun fəaliyyətə başlaması COP29 Sədrliyinin böyük uğuru oldu.
- Qlobal Adaptasiya Hədəfi sənədi ilə Bakı Adaptasiya Yol Xəritəsinin yaradılması. Bu, inkişaf etməkdə olan ölkələrin maraqlarına uyğun olaraq, adaptasiya məsələsinin hər il COP-larda müzakirə olunmasını təmin edəcək.
- COP29-un qərarı ilə 10 illik Yenilənmiş Gender üzrə Lima İş Proqramı qəbul edildi. Proqramın qəbulu üzrə danışıqlar uzun müddət idi ki, davam edirdi və COP29 Sədrliyi nəticəsində sənəd üzrə razılıq bu iqlim sammiti çərçivəsində əldə olundu.

*Mübariz ABDULLAYEV*

# Ölkəmiz ATƏT PA-da uğurla təmsil olunur

**Hazırda dövlətlərarası münasibətlərin inkişafında və beynəlxalq platformalarda parlament diplomatiyasının rolu olduqca önəmlidir. Bu mənada, ölkəmizin parlament diplomatiyası müstəvisində yürütdüyü xarici siyasət priorotet təşkil edir.**

## Parlament diplomatiyasının nailiyyətləri...

Son illərdə həyata keçirilən parlament diplomatiyası nəticəsində Azərbaycanın beynəlxalq münasibətlər sistemində və beynəlxalq platformalarda mövqeyi daha da möhkəmlənib. Artıq Azərbaycanda beynəlxalq və regional təşkilatların parlament şəbəkələrinin toplantılarının keçirilməsi ənənəsi formalaşıb. Son zamanlar parlament diplomatiyası çərçivəsində Azərbaycan bir çox beynəlxalq səviyyəli tədbirlərə və toplantılara ev sahibliyi edib. Eyni zamanda dünyanın ən müxtəlif ölkələrinin parlament nümayəndələri ölkəmizə səfər edir. Dünya ölkələrinin parlamentləri ilə sıx əməkdaşlıq və dostluq münasibətləri formalaşır. Təbii ki, bu cür əlaqələrin qurulması ölkələr arasında münasibətlırin inkişafına xidmət etməklə yanaşı, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, ölkəmizin beynəlxalq platformalarda dəstəklənməsində təsirli amildir.

Hazırda Milli Məclis bir çox nüfuzlu təşkilatların -Parlamentlərarası İttifaq, MDB PA, Asiya PA, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı, GUAM PA, TÜRKPA, NATO PA və s. işində fəal təmsil olunur. Məhz bu təşkilatlar çərçivəsində aparılan uğurlu əməkdaşlıq fəaliyyəti nəticəsində vaxtilə Ermənistanın apardığı işğalçılıq siyasətini ifşa edən qərarlar qəbul edilib.

Azərbaycanın parlament diplomatiyasının beynəlxalq miqyasda nüfuz qazanmasının göstəricilərindən biri də Milli Məclisin ATƏT Parlament Assambleyasında uğurlu təmsilçiliyidir. Qeyd edək ki, Milli Məclis uzun illərdir bu təşkilatla əməkdaşlıq edir. Hazırda ölkəmiz ATƏT PA-da 6 millət vəkilindən ibarət nümayəndə heyəti ilə təmsil olunur. Nümayəndə heyətinə deputat Qaya Məmmədov rəhbərlik edir.



Yeri gəlmişkən, hazırda Azərbaycan nümayəndə heyəti ATƏT Parlament Assambleyasının Niderlandın Haaqa şəhərində keçirilən 33-cü illik sessiyası işində iştirak edir. Beynəlxalq hüququn aliliyi, sülh və əməkdaşlıq ilə bağlı məsələlərin müzakirə olunduğu sessiyada nümayəndə heyətinin rəhbəri Qaya Məmmədov çıxış edib. O, çıxışında beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunması sahəsində vəziyyətin qeyri-qənaətbəxş olmasının əsas səbəbləri sırasında ikili standartları və selektiv yanaşmanı vurğulayıb. Azərbaycan nümayəndə heyətinin rəhbəri dövlətlərin suverenliyi və suveren bərabərliyi prinsiplərinin ali dəyərlər kimi daim qorunmalı və onlara hörmət edilməli olduğunu diqqətə çatdırıb.

Q. Məmmədov informasiya texnologiyalarından istifadənin genişləndiyi, o cümlədən süni intellektin sürətlə inkişaf etdiyi bir dövrdə beynəlxalq hüququn rəqəmsal məkanda tətbiqinin və bu müstəvidə dövlətlərin rəqəmsal suverenliyinin qorunmasının zəruriliyini bildirib. Nümayəndə heyətinin rəhbəri ölkəmizdə yeni texnologiyalardan istifadə sahəsində təhlükəsizlik, inkişaf və insan hüquqları arasında optimal nisbəti qoruyan mütərəqqi siyasət və fəaliyyətlərdən bəhs edib.

Deputat ATƏT məkanında qabaqcıl təcrübə kimi Azərbaycanda Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə rəqəmsal sahədə müfəssəl konsepsiyanı və qurumlararası yanaşmanı özündə ehtiva edən Rəqəmsal İnkişaf Şurasının fəaliyyəti haqqında məlumat verib, bu sahədə beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

## ATƏT məkanında təhlükəsizliyin təmini zəruridir

Nümayəndə heyətinin üzvü, deputat Sevinc Fətəliyeva ATƏT Parlament Assambleyasının Demokratiya, İnsan Hüquqları və Humanitar Məsələlər üzrə Ümumi Komitəsinin iclasında çıxış edib. O bildirib ki, demokratiya, insan hüquqları və humanitar məsələlər beynəlxalq hüquqdan və onilliklər ərzində ATƏT məkanında təhlükəsizlik və əməkdaşlığın əsasını təşkil edən ortaq prinsiplərdən ayrı nəzərdən keçirilə bilməz: “Bu gün regionumuz silahlı münaqişələr, humanitar böhranlar, məcburi köçkünlük və artan qütbləşmə kimi ciddi çağırışlarla üz-üzədir. Bu çağırışlar təkcə institutlarımızı deyil, bizi birləşdirən prinsiplərə sadiqliyimizi də sınağa çəkir. Onlar bir daha göstərir ki, davamlı təhlükəsizlik yalnız siyasi və ya hərbi vasitələrlə təmin oluna bilməz. Bunun üçün beynəlxalq hüquqa hörmət, səmərəli dövlət institutları, insan hüquqlarının etibarlı müdafiəsi və davamlı dialoq zəruridir”.

S.Fətəliyevanın sözlərinə görə, demokratiya güclü institutlara əsaslanır: “İnsan hüquqları onların səmərəli müdafiəsini tələb edir. Humanitar fəaliyyət həmrəyliyə söykənir. Bütün bunların təməlində isə beynəlxalq hüquqa hörmət dayanır. Məhz buna görə də ortaq prinsiplərimiz ardıcıl, qərəzsiz və vicdanla tətbiq edilməlidir. Yalnız belə yanaşma iştirakçı dövlətlər arasında etimadı möhkəmləndirə və ortaq institutlarımıza inamı gücləndirə bilər”. Deputat qeyd edib ki, Azərbaycan üçün bu prinsiplər abstrakt anlayışlar deyil. Onlar davamlı sülhün qurulması və beynəlxalq öhdəliklərin insanların həyatında real nəticələrə çevrilməsi üçün praktik fəaliyyət istiqamətidir.

Bu gün Azərbaycan nümayiş etdirir ki, postmünaqişə dövrünün bərpası yalnız infrastrukturun yenidən qurulması ilə məhdudlaşmır. Bu, ilk növbədə insan ləyaqətinin bərpası, icmaların dirçəldilməsi və insanların sülh və təhlükəsizlik şəraitində yaşaması üçün imkanların yaradılması deməkdir. “Hazırda regionumuzun davamlı sülhə nail olmaq üçün real imkanı var və hesab edirik ki, diqqətimizi məhz bu imkana yönəltməliyik. Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılması prosesinin irəlilədilməsinə sadiqdir. İnanırıq ki, dialoq, qarşılıqlı hörmət, dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə tam hörmət davamlı sülhün, insan təhlükəsizliyinin və regional əməkdaşlığın ən etibarlı təməlidir”, - deyə S. Fətəliyeva vurğulayıb.

Qeyd edək ki, ATƏT Parlament Assambleyasının 33-cü illik sessiyası iyulun 10-dək davam edəcək.

*Nardar BAYRAMLI*

# Diqqət ANKARAYA!!!



## NATO-nun Zirvə görüşü start götürür

Bu gün Türkiyədə NATO Zirvəsi öz işinə başlayır. Dünya mətbuatı 22 ildən sonra Türkiyə ərazisində baş tutacaq Ankara Zirvəsini son 10 ilin ən mühüm görüşü adlandırır. Türkiyənin NATO-dakı mövqeyinin son illərdə mühüm bir yol qət etdiyi, ölkənin inkişaf edən müdafiə sənayesinin dünyada öncül sıralara çıxdığı bildirilir. Qeyd olunur ki, Vaşinqtonla Avropa paytaxtları arasında gərginliyin artdığı bir vaxtda Ankaranın silah istehsalı potensialı və regional vasitəçilik rolu ittifaq daxilində həlledici amillər kimi ön plana çıxır. Qeyd edək ki, NATO-ya üzv 32 ölkənin liderləri Ankarada qlobal dünyada təhlükəsizliyin təmini ilə bağlı mühüm görüşlər keçirəcək. Qlobal media həmçinin Ankarada keçirilən NATO zirvə görüşündə ittifaq daxilindəki balansların yenidən formalaşmasında məhz Türkiyənin mərkəzi rol oynadığını şərh edir. Xəbərlərdə Türkiyənin yalnız ev sahibi ölkə kimi deyil, həm də ittifaq daxilindəki bölünmələri aradan qaldıra bilən əsas aktyor kimi qəbul edildiyi bildirilir.

**Türkiyə hərbi imkanlarını nümayiş etdirəcək...**

"Washington Post" qəzeti Türkiyənin silah istehsalındakı irəliləyişinin, Prezident Donald Trampla Prezident Rəcəb Tayyib Ərdoğan arasındakı dostluğun digər NATO ölkələrinin Ankaraya yanaşmasını kökündən də-




yişdirdiyini, dünyadakı mövcud müharibə və böhran şəraitinin Türkiyənin xeyrinə fürsət pəncərəsi yaratdığını vurğulayır. Trampın ötən həftə Ağ Evdə jurnalistlərə verdiyi müsahibədə "Əgər bu tədbir Prezident Ərdoğan tərəfindən Türkiyədə təşkil olunmasaydı, düşünmürəm ki, mən gedərdim" ifadəsini işlətməsi də Trampla avropalı həmkarları arasında gərgin münasibətlərin son göstəricisi kimi şərh olunur. Qəzet ABŞ-ın qitədəki hərbi mövcudluğunu azaltması qərarı qarşısında Avropanın üzünü Türkiyəyə çevirdiyini yazır. Bildirilir ki, NATO-da ikinci ən böyük hərbi gücə malik olan Türkiyə silah istehsalı ilə bağlı müzakirələrin üstünlük təşkil edəcəyi zirvədə hərbi imkanlarını nümayiş etdirəcək. Trampın F-35 qırıcı təyyarələri ilə bağlı yeni bir irəliləyiş siqnalı verdiyi və Türkiyənin daxili silah istehsalının Ankaranın əlini gücləndirdiyi qeyd olunur. Qəzet həmçinin Avropa liderlərinin Trampla münasibət qurmaq üçün mühüm bir strategiya izləyəcəklərini yazır - fikir ayrılıqlarının vurğulanan uzun birgə bəyanatlardan çəkinmək.

**Türkiyə alyansın gələcəyi üçün mərkəzi mövqe tutacaq...**

Fransız RFI də bildirir ki, Ankarada keçiriləcək NATO Zirvəsi Türkiyənin ittifaq daxilində artan təsirini nümayiş etdirməsi üçün əhəmiyyətli bir fürsətdir. Qeyd olunur ki, Prezident Ərdoğan bu zirvədən mühüm silah müqavilələri imzalamaq və Türkiyənin müdafiə sənayesinin sürətli inkişafını daha da irəliyə aparmaq üçün istifadə etməyi hədəfləyir. Ukraynadan Yaxın Şərqə qədər uzanan və münaqişələrin hökm sürdüyü ərazilərlə həmsərhəd olan Türkiyənin Alyansın gələcəyi üçün mərkəzi mövqe tutduğu vurğulanır.

Yapon nəşri "Nikkei Asia" yazır ki, builki NATO Zirvəsinin Ankarada keçirilməsi Türkiyənin dəyişən geosiyasi mühit fonunda qlobal silah təchizatçısı və regional münaqişələrdə vasitəçi kimi artan əhəmiyyətini göstərir. Məqalədə bildirilir ki, Türkiyənin müdafiə sənayesindəki irəliləyişləri və Ukrayna-Rusiya müharibəsindəki balanslaşdırıcı rolu Ankaranın beynəlxalq çəkisini artırıb. "Nikkei Asia" bildirib ki, Türkiyə NATO zirvəsinə ev sahibliyi etməklə silah istehsalçısı kimi əməkdaşlıq etdiyi ölkələrin sayını artıraraq ABŞ, Avropa və Asiya arasındakı əlaqələri konsolidasiya edəcək. Xəbərdə Ankaranın həm Qərb ittifaqı daxilində mövqeyini möhkəmləndirmək, həm də Asiya-Sakit Okean bölgəsi ölkələri ilə müdafiə əməkdaşlığını inkişaf etdirmək strategiyası vurğulanır.

**Dünya mediası: sammit gərgin atmosferdə keçə bilər**

"Masa brifinqləri" xəbər platforması NATO-nun Türkiyəyə strateji tərəfdaş kimi etibar etməsinin səbəblərini araşdırıb. Xəbərdə Türkiyənin Ankarada keçirilən NATO Zirvəsindən təhlükəsizlik siyasəti sahəsindəki rolunu gücləndirmək üçün istifadə etdiyi və ittifaq tərəfdaşlarının Türkiyə hökumətinə praqmatik yanaşma nümayiş etdirdiyi vurğulanır. Eyni zamanda, Avropa ölkələrinin Türkiyədən yeni silahlar almaq istədikləri bildirilir.

"Əl-Cəzirə" isə bildirir ki, NATO ölkələri Trampı silah alışının və hərbi xərclərin artırılması vədləri ilə məmnun etməyə ümid edirlər. Bildirilir ki, sammit gərgin atmosferdə keçə bilər.

"The Financial Times" qəzeti yazır ki, iki günlük görüşün əsas mövzuları üzvlərin müdafiə büdcələrini necə artıracaqları və silah istehsalı imkanlarını necə təkmilləşdirəcəkləri olacaq. Qəzet bildirir ki, üzvlər 2025-ci ildə ÜDM-in 5 faizini müdafiəyə ayırmağa razılaşıblar, lakin bir çoxları hələ də bu öhdəlikləri yerinə yetirməyiblər.

Londonda yerləşən "Al Majalla" qəzeti NATO-nun Ankarada keçiriləcək sammitində Ukraynaya dəstəyin bir daha təsdiqlənməsinin gözlənildiyini və Trampın məqsədinin ABŞ-ın Avropa təhlükəsizliyinə olan yükünü azaltmaq olduğunu yazır. Xəbərdə iyulun 7-də yüksək səviyyəli rəsmilər və müdafiə sənayesi liderlərinin bir araya gələcəyi Müdafiə Sənayesi Forumunun keçiriləcəyi bildirilir.

"Wall Street Journal" (WSJ) Prezident Trampın sosial mediada NATO-nu "fırıldaqçılıq" olaraq xarakterizə etdiyini xatırladaraq, görüşdə ən mühüm problemin ABŞ administrasiyasının qoşunları Avropadan çıxarma planları ilə bağlı olduğunu bildirir.

**Tədbirlərin proqramları...**

Vurğulandığı kimi, Ankara Sammiti həm alyansın gələcəyi, həm də qlobal təhlükəsizlik arxitekturasının formalaşması üçün kritik dönüş nöqtəsi kimi qəbul edilir. "NATO 3.0" adlandırılan yeni strateji konsepsiya çərçivəsində təşkil edilən Ankara Zirvə



Toplantısı bir çox lider və təhlükəsizlik mütəxəssisləri tərəfindən NATO tarixinin ən gərgin zirvə toplantılarından biri hesab olunur. Qeyd edək ki, qonaqlar arasında NATO-ya üzv ölkələri ilə yanaşı AP4 (Avstraliya, Yaponiya, Yeni Zelandiya və Cənubi Koreya) ölkələri də təmsil olunacaqlar. Sammitdə Avro-Atlantik və Hind-Sakit okean təhlükəsizlik gündəmlərinin də müzakirəsi gözlənilir. Türkiyə mətbuatı tədbirin proqramı ilə bağlı bəzi təfərrüatları açıqlayıb. Bildirilib ki, dünən NATO-nun Baş katibi Mark Ruttenin Beştepedəki Beynəlxalq Media Mərkəzində keçirilən mətbuat konfransı ilə start götürən tədbirlər iyulun 7-də davam edəcək. Bu gün müttəfiq ölkələr və müdafiə sənayesi nümayəndələri NATO Müdafiə Sənayesi Forumu baş tutacaq. Daha sonra NATO Baş katibi Mark Rutte NATO Konqresində Türkiyənin vitse-prezident Cevdet Yılmaz və milli müdafiə naziri Yaşar Gülər ilə birlikdə NATO Müdafiə Sənayesi Forumunun açılış mərasimində iştirak edəcəklər. Bundan başqa Mark Rutte və Ukrayna Prezidenti Volodimir Zelenskinin birgə mətbuat konfransı da planlaşdırılır. Günün ikinci yarısında isə NATO Xarici İşlər Nazirləri İstanbul Əməkdaşlıq Təşəbbüsü (ICI) çərçivəsində Beştəpədə Bəhreyn, Küveyt, Qətər və Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər nazirləri ilə görüşəcəklər. Eləcə də Milli Müdafiə Nazirliyinin Ay Yıldız Kampusunda Türkiyənin ev sahibliyi ilə müdafiə nazirləri üçün qəbul keçiriləcək. Avstraliya, Yaponiya, Yeni Zelandiya və Cənubi Koreyanın müdafiə nazirləri qəbulda iştirak edəcəklər.

İyulun 8-də isə Prezident Rəcəb Tayyib Ərdoğan və NATO Baş katibi müttəfiq ölkələrin dövlət və hökumət başçılarını rəsmi olaraq qarşılayacaqlar. Həmin gün Şimali Atlantika Şurasının Dövlət və Hökumət Başçılarının Görüşü başlayacaq. NATO Zirvəsi saat 15:00-da Mark Ruttenin sammitdən sonrakı mətbuat konfransı ilə başa çatacaq.

Bu günlər ərzində keçirilən görüşlərə və tədbirlərə 32 NATO üzv ölkəsinin dövlət və hökumət başçıları, eləcə də dəvət olunmuş ölkələrin liderləri, təxminən 100 nazir, çoxsaylı yüksək səviyyəli diplomatlar, beynəlxalq təşkilatların nümayəndələri və minlərlə xarici qonaq qatılacaq. Görüşləri dünyanın hər yerindən təxminən 3000 jurnalist, televiziya heyəti, fotojurnalist və beynəlxalq yayım təşkilatları işıqlandıracaq.

**56288 təhlükəsizlik işçisi...**

Zirvə həftəsi ərzində Ankara boyunca təxminən 5000 açıq hava ünsiyyət nöqtəsində təşviqat tədbirləri keçiriləcək. Reklam lövhələri, rəqəmsal ekranlar və digər açıq hava mediası dörd fərqli konsepsiyada hazırlanmış vizual materiallardan istifadə edəcək. Kampaniyalara NATO Zirvəsi mesajları, Türkiyənin COP31 sədrliyi, müdafiə sənayesi məhsulları və GoTürkiye turizm təşviqat kampaniyası ilə bağlı məzmunlar daxil olacaq.

Zirvənin təhlükəsizliyi üçün Təhlükəsizlik Baş İdarəsindən 48841 və Jandarma Baş Komandanlığından 7447 nəfər olmaqla, ümumilikdə 56288 təhlükəsizlik işçisi səfərbər olacaq. Bundan əlavə, kibertəhlükəsizlik və bu kimi cinayətkarlıq cəhdlərinin qarşısının alınması səylərinin bir hissəsi olaraq, 639 şəxs virtual patrul fəaliyyəti ilə məşğul olacaq.

***P.İSMAYILOV***

## Türkiyə və ABŞ liderlərinin görüşünün vaxtı açıqlanıb



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu gün, iyulun 7-də ABŞ Prezidenti Donald Trampla görüşəcək. NATO-nun 36-cı sammiti çərçivəsində Türkiyə və ABŞ liderləri arasında danışıqların yerli vaxtla saat 15:00-da aparılması planlaşdırılır.

Həm məhdud, həm də geniş tərkibdə müzakirələrin müdafiə sənayesi, ticarət və enerji sahələrində əməkdaşlığı əhatə edəcəyi gözlənilir.

İki liderin Ankaraya qarşı CAATSA (Amerikanın düşmənlərinə qarşı sanksiyalar vasitəsilə mübarizə Qanunu) sanksiyalarının ləğvi, Türkiyənin F-35 proqramına qayıtması, beşinci nəsil KAAN qırıcı təyyarələri üçün mühərriklərin alınması və digər müdafiə layihələrini müzakirə edəcəyi gözlənilir.

Onlar, həmçinin regional inkişaflar, xüsusən də Suriyadakı vəziyyət və Rusiya-Ukrayna müharibəsi barədə fikir mübadiləsi aparacaqlar.

Donald Tramp 17 illik fasilədən sonra Türkiyəyə səfər edən ilk ABŞ Prezidenti olacaq. Türkiyəyə sonuncu dəfə Prezident Barak Obama 2009-cu ildə səfər edib.

Bu ərəfədə Türkiyənin xarici işlər naziri Hakan Fidan ABŞ-ın Türkiyəyə qarşı tətbiq etdiyi CAATSA sanksiyalarının tezliklə ləğv ediləcəyini istisna etməyib. Onun sözlərinə görə, hər iki ölkənin hakimiyyəti buna nail olmaq üçün siyasi iradə nümayiş etdirib.

## Makron prezidentliyi dövründə ilk dəfə Ankaraya gəlir

Fransa Prezidenti Emmanuel Makron iyulun 7-8-də Türkiyənin paytaxtı Ankarada keçiriləcək NATO sammitində iştirak edəcək. Bu, Makronun 2017-ci ildə prezident seçilməsindən bəri Ankaraya ilk rəsmi səfəri olacaq.

Səfər Fransa ilə Türkiyə arasında son illərdə NATO çərçivəsində yaşanan fikir ayrılıqları fonunda xüsusi əhəmiyyət daşıyır. Paris və Ankara müxtəlif regional və təhlükəsizlik məsələlərində, xüsusilə Aralıq dənizi, Liviya və Suriya ilə bağlı mövqelərində dəfələrlə ziddiyyətlər yaşayıblar.



NATO sammiti Fransa Prezidenti Emmanuel Makron ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında münasibətlərin hazırkı vəziyyətini qiymətləndirmək baxımından da mühüm platforma hesab olunur. Son illərdə tərəflər arasında dialoqun müəyyən dərəcədə bərpa olunmasına baxmayaraq, iki ölkə arasındakı münasibətlərin tam normallaşıb-normallaşmadığı sammit zamanı aparılacaq görüşlərdə daha aydın görünəcək.

## Sammit üçün TOGG elektromobilinin limuzin modeli hazırlanıb



Türkiyənin TOGG elektromobilinin istehsalçıları limuzinin yeni versiyasını hazırlayıblar. Bu model Ankarada keçiriləcək NATO dövlət və hökumət başçılarının 36-cı sammiti Təşkilat Komitəsinin avtomobil parkına daxil edilib.

AZƏRTAC xəbər verir ki, xarici nümayəndə heyətlərinin üzvlərini daşıyacaq 10 TOGG limuzini istehsal edilib.

Türkiyə istehsalı olan limuzinlər NATO sammitinin əsas tədbirlərindən biri olan Müdafiə Sənayesi Forumunun keçiriləcəyi ATO Konqresinin qarşısında park edilib.

Bu arada, ABŞ Prezidenti Donald Trampın kortejində olan nəqliyyat vasitələri, o cümlədən "Kadillak" markalı zirehli "The Beast" limuzini Ankaraya gətirilib. Bu, Ağ Ev rəhbərinin hərəkət etdiyi və ABŞ kəşfiyyat xidmətinin sifarişi ilə hazırlanmış avtomobildir.

# Hörmüz boğazı, yoxsa Hörmüz "düyünü"?



Dünya üzrə neft daşımalarının təxminən beşdə birinin həyata keçirildiyi Hörmüz boğazının Yaxın Şərq münaqişəsi dövründə bağlanması dünya bazarlarında yanacaq qiymətlərinin artmasına səbəb olmuşdu. Boğaz bu ilin iyun ayında Tehranla ABŞ Prezidenti Donald Tramp administrasiyası arasında əldə olunmuş atəşkəs razılaşmasından sonra yenidən gəmiçilik üçün açılıb. Bununla yanaşı, İran tərəfi boğazın idarə edilməsində aparıcı rolunu qoruyub saxlayacağını və gəmilərin hərəkətinin tənzimlənməsi üçün "xidmət haqqı"nın tətbiqi ilə bağlı mövqeyini davam etdirir.




**İran rüsum tətbiq etməkdə israrlıdır**

İranın Pekindəki səfiri Əbdülrıza Rəhmani Fəzli deyib ki, Hörmüz boğazından istifadə üçün "rüsum" müəyyənləşdiriləndə Çin və digər dost ölkələrə xüsusi güzəştlər nəzərdə tutulacaq. İranlı diplomat vurğulayıb ki, bu mühüm su dəhlizi son müharibə nəticəsində İranın milli təhlükəsizliyi ilə bağlı məsələyə çevrilib. Səfir əlavə edib ki, Oman Sultanlığı ilə əməkdaşlıq və koordinasiya şəraitində Hörmüz boğazına dair yeni qaydalar müəyyənləşəcək.

"Əl-Ərəbiyə" telekanalının mənbələri isə Dohada iki ölkə arasında dolayı danışıqların başa çatmasından sonra bildiriblər ki, ABŞ Hörmüz boğazındakı vəziyyətlə bağlı İrana aydın mesajlar göndərib. Mənbələrin sözlərinə görə, ABŞ Hörmüz boğazındakı mövcud status-kvoda hər hansı bir dəyişikliyi rədd etdiyini bildirib. Onlar əlavə ediblər ki, Vaşinqton Tehrana hər hansı bir dəyişikliyin müqavilənin pozulması hesab ediləcəyini bildirib, ABŞ-ın Hörmüzdə vəziyyətə münasibətini və yanaşmasını müqaviləyə sadiqliyinin ilk sınağı hesab etdiyini qeyd edib. Mənbələr əlavə ediblər ki, ABŞ strateji boğazda İranın hərəkətini yaxından izləyir və Tehrana dondurulmuş vəsaitlərin geri qaytarılması ilə bağlı hər hansı bir irəliləyişin anlaşma memorandumuna tam riayət etməsi şərti ilə mümkün olacağını çatdırıb. Bu, İranın ötən həftə ABŞ-ın Hörmüz boğazına hər hansı bir müdaxiləsinə "qətiyyətli və çevik" cavab veriləcəyini bildirməsi və Amerika qırıcı təyyarələrinin su yolu üzərindəki mövcudluğunun regional təhlükəsizliyi təhlükə altına aldığını əlavə etməsindən sonra baş verib.

**NATO sammtində "Hörmüz"ün təhlükəsizliyi məsələsi...**

Bundan əlavə, ABŞ administrasiyası 7-8 iyul tarixlərində Ankarada keçiriləcək NATO sammiti çərçivəsində müttəfiq ölkələrin Hörmüz boğazında təhlükəsizlik məsələsini müzakirə edəcəyini gözləyir. Bu barədə CNN telekanalı mənbəyə istinadla məlumat yayıb. Mənbənin sözlərinə görə, bir sıra NATO müttəfiqləri boğazda təhlükəsizliyin təmin olunmasına dəstək verməyə hazır olduqlarını bildiriblər. Bununla belə, qeyd olunub ki, bütün ölkələrin bu missiyanın icrası üçün zəruri gəmi və texniki imkanları yoxdur.

Amerikalı rəsmi bildirib ki, Vaşinqton sammitdən sonra müttəfiq ölkələrin müdafiə xərclərini artıracağını və döyüş hazırlığını daha da gücləndirəcəyini gözləyir. Bununla yanaşı, "Financial Times" qəzeti iyulun 3-də xəbər verib ki, son bir həftə ərzində Hörmüz boğazından keçən gəmilərin sayı dörd dəfə artıb. Nəşrin qiymətləndirməsinə görə, bu dinamika gəmi sahiblərinin boğazda hərəkətin təhlükəsizliyinə inamının artdığını göstərir.



İranın xarici işlər nazirinin müavini Kazım Qəribabadi isə bəyan edib ki, Hörmüz boğazı ABŞ Mərkəzi Komandanlığına (CENTCOM) aid deyil və İranın nəzarətindədir. "Bəhreyn Müdafiə Qüvvələri Fars körfəzi üçün hüquqi nizam və təhlükəsizlik yarada bilməz", - deyə o bildirib və əlavə edib ki, regionun təhlükəsizliyi müdaxilənin başa çatması, ABŞ ordusunun regiondan çıxarılması, ölkələrin suverenliyinə hörmət və yeni geosiyasi reallıqların qəbul edilməsi ilə təmin edilir. Onun sözlərinə görə, Amerikanın hərbi çətiri altında regionda sabitlik yarana bilməz. K.Qəribabadi bununla CENTCOM-un Bəhreyndə keçirilən görüşün yekunlarına dair bəyanatına cavab verib.

Xatırladaq ki, CENTCOM iyulun 1-də Bəhreynin ev sahibliyi etdiyi regional təhlükəsizlik dialoquna rəhbərlik edib. "CENTCOM komandanı Bred Kuper, Bəhreyn, Misir, İordaniya, Küveyt, Livan, Oman, Qətər, Səudiyyə Ərəbistanı, Suriya, Birləşmiş Ərəb Əmirlikləri və Yəməndən olan yüksəkrütbəli hərbi rəsmilər mövcud regional təhlükəsizlik mühiti, müdafiə sahəsində əməkdaşlığın genişləndirilməsi imkanlarını müzakirə ediblər", - CENTCOM-un bəyanatında bildirilib. Qeyd olunub ki, Hörmüz boğazı vasitəsilə ticarətin sərbəst axınına sadiqlik vurğulanıb: "Biz regional tərəfdaşlarımızla çiyin-çiyinə dayanmağa davam edirik. ABŞ və regional tərəfdaşları Yaxın Şərqdə dünyanın ən qabaqcıl raketdən müdafiə çətirini idarə edirlər. Yanvar ayında CENTCOM və region ölkələri məlumatların, təhdid xəbərdarlıqlarının paylaşılması, həmçinin gözlənilməz hallara reaksiya verilməsi məqsədilə yeni Yaxın Şərq Hava Hücumundan Müdafiə koordinasiya bölməsini yaradıb. Bu təhlükəsizlik dialoqu Suriya və Livandan olan hərbçilərin ilk dəfə olaraq ABŞ-ın rəhbərlik etdiyi regional müdafiə konfransında iştirak etməsi ilə əlamətdar olub".

**Tehran boğazda Qərbin hərbi fəaliyyətinə qarşıdır**

Eyni zamanda, Tehran Fransa və Böyük Britaniyanın Hörmüz boğazı ilə bağlı birgə bəyanatına cavab olaraq bu strateji dəhlizdə Qərb ölkələrinin mümkün hərbi fəaliyyətinə qarşı xəbərdarlığını yenidən səsləndirib. İranın xarici işlər nazirinin müavini Kazım Qəribabadi qeyd edib ki, İran Hörmüz boğazının təhlükəsizliyinə cavabdeh və onun təminatçısı olan ölkə kimi burada istənilən xarici hərbi hərəkətə qarşı xəbərdarlıq edir. Belə ki, boğazın təhlükəsizliyinin təmin olunmasına görə məsuliyyət yalnız sahilyanı dövlətlərin üzərinə düşür. Eyni zamanda, iranlı diplomat əlavə edib ki, Hörmüz boğazı regiondankənar qüvvələrin hərbi nümayiş meydanı deyil və bölgədə gərginlik yaratmağa çalışan tərəflər bunun nəticələrinə görə məsuliyyət daşıyacaqlar.

Xatırladaq ki, bu bəyanat Böyük Britaniyanın Baş naziri Kir Starmer və Fransa Prezidenti Emmanuel Makronun Omanın Hörmüz boğazının açıq qalmasının təmin edilməsi istiqamətində London və Parislə əməkdaşlığa razılıq verdiyini açıqlamasından sonra verilib. Onlar bəyan ediblər ki, Hörmüz boğazı qlobal iqtisadiyyat üçün həyati əhəmiyyət daşıyır və bütün ölkələrin gəmiləri üçün təhlükəsiz naviqasiyanın bərpası beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Məlumatlara görə, Böyük Britaniya və Fransa gələcəkdə boğazın bağlanmasının qarşısını almaq məqsədilə birgə hərbi missiyanın yaradılmasına hazırlaşırlar.

*Nardar BAYRAMLI*

# İRƏVAN ZİYALILARINDAN MEHDİ KAZIMOV



Fəxrlə vurğulaya bilərik ki, İrəvan mühiti təhsil tariximizə xeyli sayda maarif xadimi bəxş etmişdir. Təhsil tariximizdə maarif işığı yandıran pedaqoqlardan biri də haqqında ehtiramla danışdığımız Mehdi Kazımov olmuşdur. Tanınmış maarif xadimi, yazıçı, publisist, jurnalist, pedaqoq, Qərbi Azərbaycanda maarifçilik mühitinin inkişafında müstəsna xidmətləri olan Mehdi Kazımov haqqında ilk dəfə olaraq 2010-cu ildə nəşr olunmuş "İrəvan ədəbi mühiti" adlı kitabımda və sonrakı illərdə İrəvanla bağlı işıq üzü görən əsərlərimdə, yazılarımda kifayət qədər məlumat vermişəm. Sonradan həmin məlumatlardan çoxları, o cümlədən "Əməkdar elm xadimi" də geniş şəkildə istifadə etmişdi. Amma nədənsə İrəvan mühitinin yetişdirdiyi bu maarif xadimləri, müəllimlər barədə ətraflı məlumatlar verilməmiş, onlar diqqətdən kənarda qalmışlar.

Qərbi Azərbaycan təhsil tarixində müstəsna xidməti olmuş Mehdi Kazımov 1890-cı ildə İrəvan şəhərində anadan olmusdur. İlk təhsilini İrəvan şəhər ibtidai məktəbində almışdır. Azərbaycan təhsil tarixinin görkəmli tədqiqatçısı, professor Ədalət Tahirzadənin araşdırmalarından aydın olur ki, Mehdi Kazımov 4 iyun 1910-cu ildə İrəvan Müəllimlər Seminariyasını bitirib. Ədalət Tahirzadə araşdırmalarında Mehdi Kazımovun 1918-ci ilə kimi olan dövrdəki təhsili və pedaqoji fəaliyyəti haqqında kifayət qədər məlumat vermişdir. Həmin araşdırmalardan məlum olur ki, Mehdi Kazımova verilən şəhadətnamədə 11 fənnin ikisindən 5, ikisindən 4, ikisindən isə 3 qiymət alıb. Bu fənlərdən başqa o, nəğmə, gimnastika, əl əməyi dərslərini keçsə də, ona verilən şəhadətnamədə bu haqda qeydlərə rast gəlinmir. Şəhadətnaməni imzalayanlar arasında seminariyanın ilahiyyat müəllimi, İrəvan Quberniyası Müsəlmanları Ruhani İdarəsinin sədri Axund Məhəmmədbağır Qazızadə və Azərbaycan dili müəllimi Mirzə Cabbar Məhəmmədzadənin də imzaları vardır. Mehdi Kazımov təyinatla 1 sentyabr 1910-cu ildən 1 sentyabr 1916-cı ilədək İrəvan xalq məktəbləri direktorluğunun tabeliyində olan ibtidai məktəblərdə müəllim işləyib. Sonralar Aralıq Başkənd və Vənənd məktəbinin müdiri vəzifəsində çalışmışdır. Sonralar İrəvandakı müsəlman oğlan məktəbinin müdiri və qızlar məktəbində isə rus dili müəllimi kimi fəaliyyət göstərmişdir. Mehdi Kazımov seminariyada mükəmməl təhsil alıb, Azərbaycan və rus ədəbiyyatını da mənimsəmişdir. Ədalət Tahirzadənin verdiyi məlumatlarda göstərilir ki, Mehdi Kazımov 4 iyul 1917-ci ildə Tiflis Aleksandrovski Müəllimlər İnstitutunun direktoruna ərizə yazaraq bu təhsil ocağında oxumaq istəyində olduğunu bildirir. Rus dilini mükəmməl bildiyindən 10 iyul 1917-ci ildə Mehdi Kazımov həmin instituta daxil olur. Lakin müəyyən səbəblərdən o, buranı bitirməyə nail ola bilmir. Mehdi müəllim həmin dövrdə İrəvanda fəaliyyət göstərən ikinci rus-tatar məktəbinin müdiri vəzifəsində çalışıb. Mehdi Kazımovun 1920-ci ildən sonrakı dövr fəaliyyəti haqqında məlumatlar elmi-ictimai dövriyyəyə ilk dəfə mənim təqdimatımda daxil olmuşdur.

O, İrəvanda yerli aktyorlar sırasında Azərbaycan teatrının inkişafında da yaxından iştirak etmiş və teatrın səhnəsində bir sıra rolları ifa etmişdir. 1918-ci ildə İrəvanda erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər və qətliamlar zamanı qəddarcasına qətlə yetirilməkdən xilas olmaq üçün İrəvanı tərk edərək Gəncə şəhərinə köçməyə məcbur olmuşdur. Gəncədə məskunlaşdığı müddətdə burada Cavad bəy Çuvarlının təşkil etdiyi üçaylıq pedaqoji kursda oxuyub biliyini daha da təkmilləşdirmişdir. Sonra tale onu Gədəbəyə çəkib aparmış, 1920-ci ildə orada oğlan məktəbinin direktoru, 1921-ci ilin ortalarına qədər isə Dəllərdə maarif şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra 1921-ci ilin sonlarında öz doğma vətəni İrəvana qayıtmışdır. 1922-ci ildə Ermənistan Xalq Maarif Komissarlığı nəzdində təşkil olunmuş "Azlıqda qalan millətlər bürosu"nun müdiri təyin edilmişdir. Mehdi Kazımov Qərbi Azərbaycanın ictimai-siyasi həyatında da fəallıq göstərmiş, bu şöbənin müdiri kimi soydaşlarımızın mədəni-maarif problemlərinin həllinə çalışmışdır. Məhz onun səyi və fədakarlığı sayəsində Qərbi Azərbaycandakı anadilli məktəblərdə mövcud olan bir sıra problemlər aradan qaldırılmış, məktəblərimiz tədris proqramları, dərsliklərlə təmin edilmişdir. Həmin dövrdə ən başlıca çətinlik müəllim kadrlarının çatışmazlığında idi. Bu problem azərbaycanlı məktəblərində daha ağrılı idi. Onun təşəbbüsü və təşkilatçılığı sayəsində İrəvanda və bölgələrdə pedaqoji kadrlar hazırlamaq üçün qısamüddətli kurslar təşkil edilmişdi. Həmin kurslarda o həm də müəllimlik etmişdir. Mehdi müəllim maarif sahəsində vicdanla "külüng vurmuşdur". 1923-cü ilin yanvar ayında Moskvada keçirilən "azsaylı xalqlar"ın I Ümumrusiya qurultayında nümayəndə qismində iştirak etmişdir. O, 1925-ci ildə İrəvan Yeni Türk Əlifba Komitəsinin sədr əvəzi, 1928-ci ilin sonlarına qədər isə büro üzvü kimi fəaliyyət göstərmişdir. Mehdi Kazımov böyük istedada, yüksək təşkilatçılıq qabiliyyətinə malik şəxs idi. O həm də yaradıcı müəllimlərdən idi. O, 1920-1930-cu illərdə "Rəncbər", "Zəngi", "Qızıl şəfəq" qəzeti səhifələrində Azərbaycan dilinin qrammatikasına, tədrisinə, yeni türk əlifbasının əhəmiyyəti, təbliği və tətbiqinə dair bir sıra dəyərli məqalələrin, məktəb dərsliklərinin müəllifi olmuşdur. O həmin dövrlərdə min bir əziyyət, böyük çətinliklər hesabına 1926-cı ildə Qərbi Azərbaycandakı müəllim soydaşlarımız üçün "Xalq maarifi" jurnalı nəşr etdirmişdi. 1924-cü ildə Qərbi Azərbaycanda azərbaycanlı məktəblərinin pedaqoji kadrlarla təmin olunması üçün İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin təşkilində və bir sıra uğurlara nail olmasında onun müstəsna xidməti olmuşdur. Texnikumun keçmiş İttifaq miqyasında böyük nüfuz qazanmasında Mehdi Kazımovun müstəsna xidmətləri danılmazdır. 1924-cü ildən 1932-ci ilin otralarına qədər, sonrakı dövrlərdə isə müxtəlif vaxtlarda İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun direktoru vəzifəsində işləmişdir. 1932-1933-cü illərdə Ermənistan Proletar Yazıçılar Cəmiyyətinin azərbaycanlı bölməsinin məsul katibi vəzifəsində çalışmışdır. Azərbaycanlı Yazıçılar Birliyinin təşkilində və formalaşmasında Mehdi müəllimin böyük əməyi olmuşdur. Onun fədakarlığı sayəsində İrəvanda və bölgələrdə ədəbi dərnəklər təşkil edilərək fəaliyyət göstərmiş, Azərbaycan ədəbi mühiti canlanmışdır. Məhz onun qayğısı nəticəsində onlarla istedadlı gənc İrəvan ədəbi mühitinin aparıcı simalarına çevrilmişdi. M.Kazımov ömrünün çoxunu, bütün qüvvəsini, bilik və bacarığını yorulmadan, fədakarcasına İrəvanda Azərbaycan maarifinin və mədəniyyətinin inkişafına həsr etmişdir. 1948-ci ilin noyabr ayında İrəvan Pedaqoji Məktəbinin Azərbaycanın Xanlar rayonuna köçürülməsi ilə əlaqədar Mehdi Kazımov da ailəsi ilə birlikdə həmin rayona deportasiya edilmişdir. O, 1949-1950-ci illərdə Xanlar Pedaqoji Məktəbində rus dili fənnini tədris etmişdir. 1951-1953-cü illərdə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində rus dili müəllimi vəzifəsində çalışmışdır. Mehdi Kazımovun keçdiyi şərəfli həyat yolu bugünkü və gələcək nəsillər üçün ən parlaq nümunədir. Maarif mücahidlərindən olan Mehdi Kazımov 1954-cü ildə Bakı şəhərində vəfat etmişdir.



***Cəlal Zəngi,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Bir parça xoşbəxtlik...

## Şokoladın dadlı sirri

Şokolad dünyanın ən məşhur və sevilən qida məhsullarından biridir. Onun özünəməxsus dadı, ətri və insanın əhvalına müsbət təsiri əsrlər boyu insanların diqqətini cəlb edib. Şokolad həm uşaqların, həm də böyüklərin ən çox sevdiyi şirniyyatlardan sayılır. Müasir dövrdə müxtəlif növlərdə - südlü, tünd, ağ, qozlu, meyvəli və müxtəlif içliklərlə hazırlanaraq istehlakçılara təqdim olunur.



**3 min illik tarix...**

Şokoladın tarixi təxminən 3 min il əvvələ gedib çıxır. İlk dəfə Mərkəzi Amerikanın qədim sivilizasiyaları - olmeklər, daha sonra mayalar və asteklər kakao ağacını becərmiş və onun toxumlarından içki hazırlamışlar. O dövrdə kakao müqəddəs hesab olunur, hətta bəzi hallarda pul əvəzi kimi istifadə edilirdi. Hazırlanan içki indiki şokoladdan fərqli olaraq acı dadlı olur və müxtəlif ədviyyatlarla qarışdırılaraq içilirdi.

XVI əsrdə ispan səyyahları kakaonu Avropaya gətirdilər. Burada içkiyə şəkər, vanil və darçın əlavə olunaraq daha şirin hala salındı. XIX əsrdə isə kakao yağı ayrıldıqdan sonra bərk şokolad istehsalına başlanıldı. Bu yenilik şokolad sənayesinin sürətlə inkişaf etməsinə səbəb oldu və məhsul qısa zamanda bütün dünyaya yayıldı. Şokoladın elmi adını verən şəxs isveçli təbiətşünas Karl Linneydir. Şokoladın elmi adı “theobroma cacao”dur və mənası “Tanrıların yeməyi” deməkdir.

**Əsas xammal kakaodur...**

Şokoladın əsas xammalı kakao dənələridir. Onlar fermentasiya edilir, qurudulur, qovrulur və üyüdülərək kakao kütləsinə çevrilir. Daha sonra kakao yağı, şəkər, süd tozu və digər əlavələrlə qarışdırılaraq müxtəlif növ şokoladlar hazırlanır. Tünd şokoladın tərkibində kakao miqdarı daha çox, şəkər isə nisbətən az olur. Südlü şokoladda süd tozu əlavə edilir, ağ şokoladda isə kakao kütləsi deyil, əsasən kakao yağı, süd və şəkər istifadə olunur.

Şokoladın tərkibində antioksidantlar, maqnezium, dəmir, mis, fosfor, kalium və sink kimi minerallar mövcuddur. Xüsusilə yüksək kakao tərkibli tünd şokolad flavonoidlərlə zəngindir. Bu maddələr orqanizmi sərbəst radikalların təsirindən qoruyur və ürək-damar sisteminin fəaliyyətinə müsbət təsir göstərə bilər.

Alman İnsan Qidalanması İnstitutu tərəfindən təxminən 19 min insan üzərində aparılan araşdırmada hər gün 7,5 qram şokolad yeyənlərin təzyiqinin daha aşağı olduğu, bu kəslərdə infarkt və iflic riskinin yüzdə 39 faiz daha az olduğu təsbit edilib.

**Faydalı, yaxsa ziyanlı?**

Şokoladın faydaları olduqca çoxdur. O, serotonin və endorfin hormonlarının ifrazını artıraraq əhvalın yaxşılaşmasına kömək edir, stress və gərginliyi azaltmağa dəstək olur. Müəyyən miqdarda qəbul edilən tünd şokolad qan dövranını yaxşılaşdıra, qan təzyiqinin tənzimlənməsinə yardımçı ola və beynin fəaliyyətini stimullaşdıra bilər. Tərkibindəki minerallar sümüklərin möhkəmlənməsinə və enerji mübadiləsinə də müsbət təsir göstərir.

Lakin şokoladın həddindən artıq istehlakı sağlamlıq üçün arzuolunmaz nəticələr yarada bilər. Tərkibindəki yüksək şəkər və yağ miqdarı artıq çəkiyə, piylənməyə və diş problemlərinə səbəb ola bilər. Şəkərli diabetdən əziyyət çəkən şəxslər və xüsusi pəhriz saxlayan insanlar şokolad qəbul edərkən ehtiyatlı olmalıdırlar. Həddindən artıq istifadə bəzi insanlarda miqren tutmalarını və ya yuxu problemlərini də artıra bilər. Buna görə mütəxəssislər şokoladı ölçülü şəkildə qəbul etməyi tövsiyə edirlər.

**Ən dadlı şokoladlar...**

Dünyada kakao əsasən tropik ölkələrdə yetişdirilir. Ən böyük kakao istehsalçıları Fil Dişi Sahili, Qana, İndoneziya, Nigeriya, Kamerun, Braziliya və Ekvadordur. Hazır şokolad istehsalında isə İsveçrə, Belçika, Almaniya, İtaliya və Fransa xüsusi nüfuza malikdir. Bu ölkələr yüksək keyfiyyətli şokolad istehsalı və zəngin şokoladçılıq ənənələri ilə tanınırlar. Ən dadlı şokoladlardan danışarkən ilk növbədə İsveçrə və Belçika şokoladları qeyd olunur. İsveçrə şokoladı yumşaq teksturası və yüksək keyfiyyətli süd məhsullarının istifadəsi ilə seçilir. Belçika şokoladı isə zəngin kakao dadı, əl işi pralinləri və müxtəlif növ konfetləri ilə məşhurdur. Son illərdə Fransa, İtaliya və Yaponiyada da yüksək keyfiyyətli, xüsusi reseptlərlə hazırlanan şokolad növləri böyük rəğbət qazanmışdır. Müasir dövrdə şokolad yalnız desert kimi deyil, həm də müxtəlif tortların, peçenyelərin, dondurmaların, içkilərin və şirniyyatların hazırlanmasında geniş istifadə edilir. Bundan başqa, şokolad hədiyyə mədəniyyətinin də ayrılmaz hissəsinə çevrilib. Balanslı qidalanmanın tərkib hissəsi kimi qəbul edilən keyfiyyətli şokolad həm dadlı, həm də faydalı xüsusiyyətləri ilə insanların həyatında xüsusi yer tutmağa davam edir.

*Yeganə Bayramova*

# Yayın görünməyən təhlükəsi...

## Günəş təkcə dərini deyil, gözləri də yandırır

İsti havalarda günəş şüaları göz sağlamlığına mənfi təsir göstərə bilər. Məlumdur ki, göz insan orqanizminin ən həssas üzvlərindən biri hesab olunur. Günəşdən yayılan ultrabənövşəyi A (UVA) və ultrabənövşəyi B (UVB) şüaları uzun müddət ərzində qorunmasız şəkildə göz toxumalarına təsir etdikdə, buynuz qişada, büllurda, tor qişada, hətta göz qapaqlarında müxtəlif dərəcəli zədələnmələr yarada bilər. Bu dəyişikliklər bəzən ilkin mərhələdə heç bir əlamət verməsə də, illər keçdikcə görmə qabiliyyətinin zəifləməsinə səbəb olur.



Yay aylarında ən çox rast gəlinən problemlərdən biri isə “fotokeratit” adlanan vəziyyətdir. Bu, buynuz qişanın ultrabənövşəyi şüalar nəticəsində yanması kimi qiymətləndirilir. Adətən güclü günəş işığına, dəniz sahillərində qumun, suyun və ya qarın səthindən əks olunan şüalara uzun müddət məruz qaldıqdan sonra inkişaf edir. Nəticədə gözlərdə kəskin ağrı, güclü yaşarma, işığa qarşı həssaslıq, yanğı hissi, qızartı və görmənin müvəqqəti bulanıqlaşması meydana gəlir.

**Günəş radiasiyası tor qişaya necə təsir edir?**

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən oftalmoloq Gündüz Məmmədli bildirib ki, uzun illər ərzində günəş şüalarının davamlı təsiri göz büllurunda bulanıqlığın yaranmasına, yəni kataraktın inkişaf riskinin artmasına səbəb ola bilər. Onun sözlərinə görə, bu xəstəlik yaşlanma ilə əlaqəli hesab edilsə də, ultrabənövşəyi şüalara uzunmüddətli məruz qalmaq onun daha erkən yaşlarda meydana çıxmasına zəmin yarada bilər:

“Bundan əlavə, güclü günəş radiasiyası tor qişanın, xüsusilə də mərkəzi görməyə cavabdeh olan makula nahiyəsinin zədələnməsinə təsir göstərən amillərdən biri hesab olunur. Uzunmüddətli UV təsiri yaşa bağlı makula degenerasiyasının inkişaf riskini artıraraq insanın oxuma, avtomobil idarə etmə və incə detalları seçmə qabiliyyətinə mənfi təsir göstərə bilər”.

**“Quru göz sindromu”**

Otalmoloq qeyd edib ki, yay aylarında küləkli hava, yüksək temperatur, kondisionerli mühit və günəş şüalarının birgə təsiri göz yaşının buxarlanmasını sürətləndirərək “quru göz sindromu”nun yaranmasına və ya mövcud şikayətlərin daha da güclənməsinə səbəb ola bilər:

“Belə hallarda insanlar gözlərdə batma, sancma, yad cisim hissi, yanğı, yorğunluq və görmənin müvəqqəti bulanıqlaşmasından şikayət edirlər.

Dəniz və hovuz mövsümündə gigiyena qaydalarına əməl edilmədikdə və ya kontakt linzalarla suya daxil olunduqda infeksion göz xəstəliklərinin yaranma ehtimalı da artır. Çünki hovuz suyunda istifadə olunan kimyəvi maddələr




gözün qoruyucu təbəqəsini qıcıqlandıra, müxtəlif mikroorqanizmlər isə buynuz qişada iltihabi proseslərin inkişafına səbəb ola bilər”.

**Saat 10:00-16:00 arası...**

Həkimin sözlərinə görə, gözləri günəşin zərərli təsirlərindən qorumağın ən effektiv yollarından biri beynəlxalq standartlara uyğun, UV400, 100 faiz UVA və UVB qoruyuculuğuna malik keyfiyyətli gün eynəklərindən istifadə etməkdir:

“Yalnız tünd rəngli şüşələr gözləri qorumur və keyfiyyətsiz eynəklər bəbəyi genişləndirərək ultrabənövşəyi şüaların göz daxilinə daha çox daxil olmasına şərait yarada bilər.

Xüsusilə, saat 10:00-dan 16:00-a qədər olan müddətdə günəş şüalarının intensivliyi daha yüksək olduğundan, bu saatlarda mümkün qədər kölgədə qalmaq, geniş kənarlı papaqlardan istifadə etmək və uzun müddət birbaşa günəş altında qalmaqdan çəkinmək göz sağlamlığının qorunması baxımından olduqca vacib hesab olunur.

Kontakt linza istifadə edən şəxslər yay aylarında gigiyena qaydalarına daha ciddi əməl etməli, linzaları təmiz əllərlə taxmalı və çıxarmalı, hovuzda, dənizdə linza ilə üzməkdən mümkün qədər çəkinməli, gözlərdə qızartı, ağrı və ya bulanıq görmə yarandıqda isə linzaları dərhal çıxararaq həkimə müraciət etməlidirlər”.

**Gözlərdə ağrı və qızartını adi yorğunluq saymayın!**

Oftalmoloq həmçinin qeyd edib ki, orqanizmin kifayət qədər maye qəbul etməsi, antioksidantlarla zəngin qidalanma, xüsusilə A, C və E vitaminləri, lutein, zeaksantin və omeqa-3 yağ turşuları ilə zəngin məhsulların rasiona daxil edilməsi göz toxumalarının sağlamlığının qorunmasına və oksidləşdirici stressin azaldılmasına müsbət təsir göstərə bilər:

“Əgər günəş altında qaldıqdan sonra gözlərdə güclü ağrı, ani görmə zəifləməsi, işığa baxa bilməmək, davamlı qızartı, irinli ifrazat və ya bir neçə saat ərzində keçməyən narahatlıq müşahidə olunursa, bu əlamətləri adi yorğunluq kimi qiymətləndirmək düzgün deyil. Vaxt itirmədən həkimə müraciət etmək lazımdır, çünki erkən diaqnostika və düzgün müalicə gələcəkdə yarana biləcək ciddi görmə problemlərinin qarşısını almaq mümkündür”.

Unutmaq olmaz ki, göz sağlamlığını qorumaq yalnız görmə qabiliyyətini saxlamaq deyil, həm də həyat keyfiyyətini uzun illər yüksək səviyyədə davam etdirmək deməkdir. Yay aylarında sadə profilaktik tədbirlərə əməl etməklə ultrabənövşəyi şüaların gözlərə vurduğu zərərin əhəmiyyətli dərəcədə qarşısını almaq mümkündür”.



## “Tottenhem” tarixinin ən bahalı transferi




İngiltərənin “Tottenhem” klubu yeni transferini açıqlayıb. AZƏRTAC London təmsilçisinin rəsmi saytına istinadən xəbər verir ki, italiyalı yarımmüdafiəçi Sandro Tonali heyətə cəlb olunub.

Futbolçu ilə imzalanan müqavilənin müddəti açıqlanmayıb. İddiaya görə, “Tottenhem” bu keçid üçün 117 milyon avro təzminat ödəyib. Bu, klubun tarixində ən bahalı transferdir.

Sandro Tonali son olaraq “Nyukasl”da çıxış edib. O, ötən mövsüm komandanın heyətində bütün turnirlərdə 53 oyunda 3 qol və 7 məhsuldar ötürmə ilə yadda qalıb.

## Azərbaycanlı hakim Konfrans Liqasında



FIFA referisi Tural Qurbanov növbəti dəfə beynəlxalq təyinat alıb. AZƏRTAC xəbər verir ki, o, UEFA Konfrans Liqasının I təsnifat mərhələsində Monteneqroda “Deçiç” və “Liepaya” (Latviya) komandaları arasında keçiriləcək cavab qarşılaşmasının baş hakimi olacaq.

Ona Asiman Əzizli və Gülnurə Əkbərzadə kömək edəcəklər. Dördüncü hakim funksiyasını Kamal Umudlu yerinə yetirəcək.

İyulun 15-də Tuzi şəhərində yerləşən “Tuşko Polje” stadionunda keçiriləcək görüş Bakı vaxtı ilə saat 22:30-da başlanacaq.




## UEFA-dan FIFA-ya etiraz

UEFA FIFA-nın intizam qərarı ilə bağlı bəyanat yayıb. AZƏRTAC Avropa futbol qurumunun rəsmi saytına istinadla xəbər verir ki, qurum dünya çempionatında qırmızı vərəqə alan ABŞ millisinin futbolçusu Folarin Baloqunun bir oyunluq cəzasının bir il sınaq müddəti ilə əvəzlənməsi qərarını kəskin tənqid edib.

Bəyanatda bildirilib ki, futbolun əsasını ədalətli, dürüst və şəffaf rəqabəti təmin edən qaydalar təşkil edir. Qeyd olunub ki, qırmızı vərəqə alan oyunçunun minimum bir oyunluq cəzası avtomatik tətbiq olunmalı, bununla bağlı istisnaya yol verilməməlidir.

Qurum vurğulayıb ki, belə bir qərarın turnirin gedişində qəbul edilməsi eyni vəziyyətdə üzləşərək cəzalarını çəkmiş digər futbolçulara qarşı ədalətsizlikdir. Bəyanata əsasən, bu addım yarışın bütövlüyünə və etibarlılığına xələl gətirir.

UEFA, həmçinin qeyd edib ki, xüsusilə dünya çempionatı kimi nüfuzlu turnirlərdə qəbul olunan qərarlar bütövlükdə futbolun gələcəyinə müsbət və ya mənfi təsir göstərə bilər.

Sonda UEFA FIFA-nın qərarını “görünməmiş, anlaşılmaz və əsaslandırılmamış” kimi qiymətləndirərək, buna görə ciddi narahatlığını ifadə edib.

Xatırladaq ki, Folarin Baloqun dünya çempionatının 1/16 final mərhələsində Bosniya və Herseqovina ilə keçirilən oyunda rəqib futbolçuya qarşı kobud qayda pozuntusuna görə birbaşa qırmızı vərəqə alıb. FIFA isə futbolçuya tətbiq olunmalı olan bir oyunluq cəzanın icrasını təxirə salıb və onu bir il sınaq müddəti ilə əvəzləyib. Bu səbəbdən ABŞ millisinin hücumçusu Belçikaya qarşı 1/8 final görüşündə meydana çıxa biləcək.

## Bellinqem yeni rekorda imza atıb




İngiltərə millisinin futbolçusu Cud Bellinqem dünya çempionatları tarixinə düşüb. AZƏRTAC FIFA-nın rəsmi saytına istinadən xəbər verir ki, DÇ-2026-nın 1/8 final mərhələsinin Meksika ilə matçında meydana çıxan yarımmüdafiəçi mundiallarda 10 oyun həddinə hamıdan tez çatan ən gənc (23 yaş 6 gün) futbolçu olub. “Real Madrid”in oyunçusu bununla da 1978-ci ildə Argentina yığmasının heyətində Polşaya qarşı keçirilən görüşdə 10-cu dünya çempionatı matçına çıxan Mario Kempesə (23 yaş 334 gün) məxsus rekordu yeniləyib.

Qeyd edək ki, Meksika üzərində 3:2 hesablı qələbə qazanan İngiltərə millisi dünya çempionatının 1/8 final mərhələsinə yüksəlib.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4308**
**Sifariş: 872**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova